QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 002 (5722) **5 yanvar** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan bu gün biznes sahəsində dünyanın aparıcı ölkələrindəndir

*İlham Əliyev: "Azərbaycan iqtisadiyyatının davamlı tərəqqisi üçün qeyri-neft sektorunun inkişafı bizim uğurla həll etdiyimiz əsas vəzifəmizdir"*



Səh 2

2018-ci il: On dörd mühüm hadisənin geosiyasi analizi və proqnozlar



8

Kənd təsərrüfatının inkişafında növbəti uğurlu Fərman



3

"Azərbaycanda sabitliyin əsas mənbəyi xalq-iqtidar birliyidir"



4

Yaponiyanın Fuci telekanalında Azərbaycan haqqında veriliş yayımlanıb



12

Janna Aleksaynyan: "Ermənistanda məhkumlar insan olaraq qəbul edilmirlər"



4

Bu il bölgələrdə 5 "ASAN xidmət" istifadəyə veriləcək

asan xidmət

6

7

Ermənistan və Gürcüstan BMT-nin ən yoxsul ölkələridir



7

Anna Akopyanın xarici səfərləri hansı vəsaitlər heasabına baş tutur?



16

Globe Soccer Awards-2018: Ronaldu ən yaxşı futbolçu seçildi



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

5 yanvar 2019-cu il

# Azərbaycan bu gün biznes sahəsində dünyanın aparıcı ölkələrindəndir

## İlham Əliyev: “Azərbaycan iqtisadiyyatının davamlı tərəqqisi üçün qeyri-neft sektorunun inkişafı bizim uğurla həll etdiyimiz əsas vəzifəmizdir”





***Bu gün Azərbaycanda iqtisadi inkişafı xarakterizə edən ən mühüm cəhətlərdən biri ölkəmizdə güclü sahibkarlar sinfinin formalaşmasıdır. Ölkəmizdə ümumi daxili məhsul istehsalında özəl sektorun xüsusi çəkisi aydın hiss olunur, iqtisadi artımın təminatında sahibkarlar sinfinin mövqeyi davamlı şəkildə güclənir.***

Dövlət tərəfindən sahibkarlığın inkişafına yaradılan şərait və müxtəlif formalarda verilən dəstək, eyni zamanda, sözügedən institutun daha sürətli tərəqqisi məqsədilə sistem halında ardıcıllıq prinsipi ilə həyata keçirilən və bir-birini tamamlayan iqtisadi islahatlar sahibkarlıq təsərrüfatlarının ölkə iqtisadiyyatının yüksəlişində mühüm rol oynayan subyektlərdən biri olaraq, çıxış etməsinə möhkəm bazis yaradıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasət sahibkarlığın inkişafında, yerli istehsal və sosial infrastrukturun yaradılmasında, güzəştli kreditlərin ayrılmasında, insan kapitalı və təbii ehtiyatlardan səmərəli istifadə yolu ilə mövcud potensialın reallaşdırılmasında, yerli və xarici investorların ölkəyə, xüsusilə, regionlara cəlb olunmasında yeni bir səhifə açıb. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə zamanın tələblərinə uyğun şəkildə aparılan islahatlar daha geniş vüsət alaraq, həm də sosial-iqtisadi inkişaf sahəsində keyfiyyətcə yeni bir mərhələnin əsasını qoyub. Bu kontekstdə ölkədə sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daim yaxşılaşdırılması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksəkkeyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsal edilməsi Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir.

Görülmüş tədbirlər nəticəsində 2003-2017-ci illərdə ölkəmizin qeyri-neft məhsulları ixracı 4,1, ixrac olunan mal çeşidlərinin sayı 2,6 dəfə artıb. Eyni zamanda, sahibkarlıq subyektlərinin sayı 4,2, hüquqi şəxslərin sayı 1,9, kiçik müəssisələrin sayı 2, fərdi sahibkarların sayı 5 dəfə çoxalıb. Müstəqillik qazandıqdan sonra ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulub.

Özəl sektorun dəstəklənməsi, sahibkarların hüquq və mənafelərinin qorunması sahəsində yeni iqtisadi şəraitə uyğun islahatlar həyata keçirilir, bu sahənin inkişafı üçün beynəlxalq təcrübə nəzərə alınmaqla, müasir çağırışlara cavab verən mexanizmlər tətbiq olunur. Sahibkarlığa dövlət dəstəyi tədbirləri nəticəsində sahibkarlıq subyektlərinin sayının son 15 il ərzində artması, ölkəmizdə iş yerlərinin 75 faizinin, məhz özəl sektorun payına düşməsi bu prosesin dönməz xarakter aldığını bir daha təsdiq edir.



Son illərdə ölkədə sahibkarlıq fəaliyyətini tənzimləyən prosedur və qaydalar xeyli liberallaşdırılıb, sahibkarlığa dövlət maliyyə yardımı mexanizmi işə salınıb, ölkədə bəzi məhsullara ixrac rüsumları ləğv edilib, idxalda rüsumların 15 faizlik maksimal həddi müəyyənləşdirilib. Bu baxımdan, ölkə iqtisadiyyatının, xüsusilə də, özəl sektorun inkişafında keyfiyyətcə yeni mərhələ başlanıb. Bu mərhələdə sahibkarların fəaliyyətinə əsassız və qanunsuz müdaxilələrin, bürokratik yoxlamaların aradan qaldırılması, liberal biznes mühitinin formalaşdırılması xüsusi diqqət mərkəzindədir. Sahibkarlıq subyektlərində yoxlamaların 2021-ci ilədək dayandırılması öz müsbət nəticələrini verib.

Eyni zamanda, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı azaldılıb, lisenziyalar müddətsiz müəyyən edilib, dövlət rüsumunun məbləği Bakıda 2 dəfə, regionlarda isə 4 dəfə azaldılıb, lisenziyaların İqtisadiyyat Nazirliyi tərəfindən “ASAN xidmət” mərkəzlərində verilməsinə və “Elektron lisenziya” portalının yaradılmasına başlanılıb. Əvvəllər müxtəlif sahibkarlıq fəaliyyətlərinə, bütünlükdə 330 icazə tələb olunurdusa, “Lisenziyalar və icazələr haqqında” qanunun qüvvəyə minməsi ilə bütün icazələr vahid sənəddə göstərilir, onların sayı 86-ya, lisenziyalar 59-dan 37-yə endirilib.

Dekabrın 4-də Bakı Ekspo Mərkəzində “Bakutel-2018” sərgisində Prezident İlham Əliyev bu gün Azərbaycanın biznes sahəsində dünyanın aparıcı ölkələri sırasında olduğunu bəyan edib: “Azərbaycan iqtisadiyyatının davamlı tərəqqisi üçün qeyri-neft sektorunun inkişafı bizim uğurla həll etdiyimiz əsas vəzifəmizdir. Buna görə də, biznesə yaxşı şəraitin yaradılması məqsədilə infrastruktur layihələrinin inkişafı üçün çox iş görülür. Biznesin həvəsləndirilməsi, sahibkarlara köməklə bağlı xeyli layihələr var. Bütövlükdə, investisiya və biznes mühiti Azərbaycanda yaxşılaşır. Dünya Bankının son məlumatlarına, “Doing busines” hesabatına görə Azərbaycan 25-ci yerdədir. Biz bir il ərzində 32 pillə irəliləmişik və bu gün biznes sahəsində dünyanın aparıcı ölkələri sırasındayıq”.

Əldə edilmiş uğurların davamlığının təmin olunması sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini, sahibkarlara, xüsusilə də, kiçik və orta sahibkarlara göstərilən texniki, maliyyə, hüquqi, metodiki və s. xidmətlərin əhatə dairəsinin genişləndirilməsini, keyfiyyət səviyyəsinin daha da artırılmasını zəruri edir, bu sahədə institusional yanaşmanı şərtləndirir. Bütün bunları nəzərə alaraq, Azərbaycan Prezidenti “Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında” 28 dekabr 2017-ci il tarixli Fərman imzalayıb. Fərmana əsasən, İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi yaradılıb. Agentliyin qarşısında qoyulan əsas vəzifə ölkədə kiçik və orta sahibkarların iqtisadiyyatda rolunun və əhəmiyyətinin artırılması, dövlət orqanları və təşkilatlarının bu sahədə fəaliyyətinin əlaqələndirilməsi, bu sahə üzrə dövlət dəstəyi sahəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiq edilməsidir.

Sahibkarlığın maliyyə resursları ilə təmin olunması əsas mexanizmlərdəndir. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu fəaliyyət göstərdiyi dövrdə investisiya layihələrinin ümumi dəyəri 4,9 milyard manat olan 35 mindən çox sahibkara 2,2 milyard manat güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə, investisiya layihələrinin reallaşdırılması nəticəsində, 164 minə yaxın yeni iş yerinin açılması imkanı yaradılıb. Güzəştli kreditlərin 72%-i aqrar sektorun, 28%-i sənaye və digər sahələrin inkişafına yönəldilib. Bu kreditlərin 75%-i regionların, 25%-i Bakı qəsəbələrinin payına düşür. 2018-ci ildə geri qaytarılan vəsaitlər hesabına sahibkarlara minimum 170 milyon manat güzəştli kreditin verilməsi təmin ediləcək. Artıq sahibkarlıq subyektlərinə 113,1 milyon manat güzəştli kredit verilib.

Dövlət başçısının “Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında” 2018-ci il 31 iyul tarixli Fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondu ləğv edilərək İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsi yaradılıb.

Bir sözlə, Prezident İlham Əliyevin iqtisadi siyasəti şəffaf biznes mühiti formalaşdırıb. Bəli, sahibkarlar sinfinin formalaşması Azərbaycanın inkişafına çox böyük töhfədir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, gələcəkdə də Azərbaycanda sahibkarlığın inkişafına böyük diqqət göstəriləcək və sağlam rəqabət təmin olunacaq.

***“Səs” Analitik Qrupu***

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 19 dekabr tarixli "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsinə dair" Fərmanı həyata keçirilən aqrar islahatların mühüm tərkib hissəsidir. Fərmana əsasən, bundan sonra kənd təsərrüfatı texnikası və damazlıq heyvanlara tətbiq olunan güzəştlər bütün təchizatçı şirkətlərə şamil ediləcək. Texnika və damazlıq heyvan satışı "Aqrolizinq" tərəfindən deyil, təchizatçı şirkətlər tərəfindən həyata keçiriləcək. Nəticədə, kənd təsərrüfatı texnikası bazarında rəqabət güclənəcək və qiymətlərdə azalma müşahidə olunacaq. "Aqrolizinq"in portfeli, texnika və damazlıq heyvanlara güzəştlərin tətbiqi funksiyaları Aqrar Kredit və İnkişaf Agentliyinə ötürüləcək. "Aqrolizinq", hələlik, digər funksiyalarını davam etdirəcək. Eyni zamanda, "Aqrolizinq" ASC kənd təsərrüfatı texnikası və damazlıq heyvan satışında iştirak etməyəcək, yalnız gübrə və pestisidlərin satışını həyata keçirən bazar iştirakçılarından biri olacaq.*

# Kənd təsərrüfatının inkişafında növbəti uğurlu Fərman

## *Prezidentin imzaladığı son Fərman aqrar islahatların mühüm tərkib hissəsidir*



Fərmana görə, kənd təsərrüfatı texnikası və damazlıq heyvanların lizinqə götürülməsi artıq "Aqrolizinq"də deyil, müvəkkil banklarda rəsmiləşdiriləcək. Kənd təsərrüfatı texnikasının lizinqi zamanı dövlət texnikanın ilkin dəyərinin 40 faizini subsidiya şəklində ödəyəcək. Fermer 20 faiz ilkin ödəniş edəcək, qalan 40 faiz isə fermerə müvəkkil bank tərəfindən kredit şəklində veriləcək. Müvəkkil banklar tərəfindən tətbiq edilən maksimum 7 faiz olan kredit faizi dövlət tərəfindən subsidiyalaşdırılacaq.

Damazlıq heyvanlarda isə, dövlətin tətbiq etdiyi subsidiya 10 faiz artırılaraq, 50 faizdən 60 faizə qaldırılacaq. Vətəndaş qalan məbləğin 25 faizini ilkin ödəniş edəcək, 15 faizini isə banklar kredit şəklində rəsmiləşdirəcək. Aparılan islahatlar nəticəsində kənd təsərrüfatı texnikası və damazlıq heyvan bazası artacaq və daim yenilənəcək.

Fərmana əsasən, "Aqrolizinq"in tabeliyində olan aqrotexniki servis xidmətləri mərhələli şəkildə özəlləşdiriləcək. Özəlləşdirmə aqrotexniki xidmətlərin keyfiyyətinin artmasına müsbət təsir göstərəcək. Həmçinin, Fərmanada o da bildirilir ki, kənd təsərrüfatı texnikası ehtiyat hissələrinin istehsalı, satışı və idxalının əlavə dəyər vergisindən azad olunması da nəzərdə tutulur.

### Aqrar sektorun inkişafı üçün yeni yollar açılır - faktlar, rəqəmlər, reallıqlar...

Ümumiyyətlə, dövlət başçımız tərəfindən iqtisadiyyatın inkişafında qeyri-neft sektoru prioritet elan olunduğu gündən onun sənaye ilə kənd təsərrüfatı sahələri aparıcı qüvvə elan olunub. O cümlədən, dövlət başçısının bu Fərmanı da Azərbaycanda bu sektorun inkişafı üçün əlverişli şərait yaradır. Faktlara diqqət yetirsək, bu uğurların məntiqi nəticəsini görərik. Belə ki, bu ilin doqquz ayında kənd təsərrüfatı məhsullarının ümumi istehsal həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 2,8 faiz, o cümlədən, heyvandarlıq məhsullarının istehsalı 3 faiz, bitkiçilik məhsullarının istehsalı isə 2,6 faiz artıb. Yüksək əlavə dəyərin yaradıldığı sənaye tələbatlı kənd təsərrüfatı məhsullarının istehsalı sahələrinin inkişaf etdirilməsi istiqamətində görülən geniş əhatəli tədbirlərin müsbət nəticələri artıq öz bəhrəsini verir. Kənd təsərrüfatı məhsulları ixracının son bir neçə ildən etibarən başlayan yüksək artım dinamikası cari ildə daha böyük templə davam edib. Belə ki, 2017-ci ilin yanvar-sentyabr ayları ərzində ixrac 374,8 milyon ABŞ dolları olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 47,4 faiz çoxdur. O cümlədən, bu sahə üzrə ixracın əsas hissəsini təşkil edən meyvə-tərəvəz məhsullarının ixracı 41,5 faiz artaraq, 306,5 milyon ABŞ dolları olub (69,7 faiz tərəvəz ixracında, 15,8 faiz isə meyvə ixracında artım). Ötən ildən etibarən kənd təsərrüfatının ənənəvi sahələri olan pambıqçılıq və tütünçülükdə əldə olunan ciddi dönüş bu məhsullar üzrə ixracda da özünü göstərib. 2017-ci ilin 9 ayında 25,2 min ton və ya ötən illə müqayisədə 2,3 dəfə çox həcmdə pambıq mahlıcı, həmçinin, 2,9 min ton və ya ötən illə müqayisədə 1,8 dəfə çox tütün xammalı ixrac edilib.

### Yeni ilin dövlət büdcəsində aqrar sektorun inkişafı da diqqətdə saxlanılıb

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan davamlı inkişaf kursu Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə daha da möhkəmlənib, qeyri-neft sektorunun, eləcə də, aqrar sektor üzrə istehsalın və ixracın artırılması istiqamətlərində kompleks tədbirlər görülüb. Son Fərman aqrar sektora dövlət dəstəyinin real amildir. Məhz intensiv texnologiyaların tətbiqi, kənd təsərrüfatı məhsullarının ixrac coğrafiyasının genişləndirilməsi, aqroparklar, iri fermer və bağçılıq təsərrüfatlarının, müasir heyvandarlıq komplekslərinin, quşçuluq fabriklərinin fəaliyyətə başlaması, meliorativ tədbirlər nəticəsində, yeni torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsi bu sahədə iqtisadi artımı sürətləndirib. Hazırda 30 rayon üzrə 192 min hektar ərazidə investisiya dəyəri 1,4 milyard manat olan 45 aqroparkın yaradılması üzrə işlər sürətlə davam etdirilir. Bu çərçivədə 332 milyon manat dövlət maliyyə dəstəyi göstərilib ki, bunun da 219 milyon manatı infrastrukturun yaradılmasına yönəldilən dövlət investisiya qoyuluşu, 113 milyon manatı isə 17 aqroparka verilmiş güzəştli kreditlərdir. Bununla yanaşı, 15 aqropark üzrə dəyəri 566 milyon manat olan 27 layihəyə investisiya təşviqi sənədi verilib. Artıq 6 aqropark fəaliyyətə başlayıb. Qeyd edilənlər nəzərə alınaraq, aqrar sektor üzrə 2019-cu ildə 4,6 faiz, növbəti 3 ildə isə orta hesabla 4,5 faizdən çox artım gözlənilir. Qarşıdakı dövr üçün qeyd edilən proqnoz göstəricilərinin reallaşdırılmasına 2019-cu ilin dövlət büdcəsində aqrar sektorun inkişafı məqsədilə nəzərdə tutulan xərclərin cari illə müqayisədə 10,5 faiz artırılaraq, 835 milyon manat səviyyəsində çatdırılması da öz müsbət təsirini göstərəcək. Bu isə kənd təsərrüfatı üzrə istehsalın və ixracın artırılmasında uğurların şərtləndirilməsi deməkdir.

Beləliklə, bütün bu qeyd olunan məsələlərin həlli respublikada rəqabətqabiliyyətli kənd təsərrüfatı və kənd təsərrüfatı məhsullarının emalı sektorunun inkişafı üçün əlverişli mühit yaradacaqdır.

**RƏFİQƏ KAMALQIZI**

## Dövlət qulluğuna qəbul olmaq istəyən şəxslər üçün elektron sınaq imtahanı keçiriləcək

Dövlət İmtahan Mərkəzində dövlət qulluğuna qəbul olmaq istəyən şəxslərin müsabiqənin test imtahanı mərhələsinə daha da səmərəli hazırlaşmalarına kömək məqsədilə elektron sınaq imtahanı keçiriləcək. Mərkəzdən sınaq imtahanı AA, AB, AC, BA, BB qrupları üzrə yanvarın 19-da saat 10-da keçiriləcək.

Namizədlər imtahanı Mərkəzin Nəsimi rayonu, Abdulvahab Salamzadə küçəsi, 28 ünvanında yerləşən binasında xüsusi ayrılmış zallarda kompüter vasitəsilə elektron formada verəcəklər. Qeyd olunan imtahanda iştirak etmək üçün onlayn qeydiyyat yanvarın 4-də başlayıb və yanvarın 19-da saat 9-da başa çatacaq. Qeydiyyatdan keçmək üçün http://eservices.dim.gov.az/dqq/Exam/TestExamRegCom linkinə daxil olmaq lazımdır.

## "Azərbaycanda sabitliyin əsas mənbəyi xalq-iqtidar birliyidir"



***"Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bildirdi ki, Azərbaycanda sabitliyin əsas səbəbi və mənbəyi xalq-iqtidar birliyidir. Azərbaycanda görülən işlərin, əldə edilən nailiyyətlərin hamısının yeganə təməli ölkədə ictimai-siyasi sabitliyin və bu sabitliyin başında duran ölkə başçısı cənab Prezident İlham Əliyevdir. Təbii ki, bütün bunları da həyata keçirmək üçün ən böyük mənbə xalq-iqtidar birliyidir. Məhz həmin o vəhdətin nəticəsində bu işlər görülür". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, hakim Partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov deyib.***

YAP GB sədrinin sözlərinə görə, Azərbaycanın uğurları, inkişafı üçün dövlət başçısı bütün mümkün vasitələrdən istifadə edir: "Ölkə başçısı istər ölkə daxilindəki iqtisadi potensialımızın gücləndirilməsi ilə bağlı, istərsə də təhlükəsizlik məsələlərinin ən yüksək səviyyədə tutulması ilə bağlı, eləcə də digər sahələrdə dayanıqlı inkişafın təmini üçün, hümanitar sahədə uğurların əldə edilməsi üçün əlindən gələni edir.

Bu gün Azərbaycan bütün meqalayihələrdə uğurla iştirak edir. Eləcə də son 15 ildə Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, Qoşulmama Hərəkatının Nazirlər Şurasının toplantısının ölkəmizdə keçirilməsi, gələn il isə Qoşulmama Hərəkatına üzv olan ölkə başçılarının Azərbaycanda toplanması və sədrliyin ölkəmizə keçməsi bizim ən böyük uğurlarımızdan biridir. Dünyanın 120-dən artıq ölkəsi həmin o Qoşulmama Hərəkatına üzvdür. Bu gün bizim ən böyük problemimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bununla bağlı cənab Prezidentimiz real nəticələrə nail olmaq üçün artıq səylərini artırmaqdadır. Düşünürük ki, Ermənistanda baş verən bu son hadisələrdən sonra bu real nəticələrə daha da yaxınlaşacayıq. Çünki erməni xalqı artıq Ermənistandakı xunta rejiminə yox deyir".

## Janna Aleksaynyan: "Ermənistanda məhkumlar insan olaraq qəbul edilmirlər"



***Ermənistanın "Jurnalistlər İnsan hüquqları naminə" QHT-nin sədri Janna Aleksanyan Facebook səhifəsində yazıb ki, Nubaraşen həbsxanasında ömürlük həbs cəzası almış şəxsin sağlamlıq vəziyyəti kritik həddə çatıb. SİA xəbər verir ki, bu barədə erməni mətbuatı məlumat yayıb.***

"Bu gün öyrəndim ki, ömürlük həbs cəzası almış Armenak Mnjoyannın vəziyyəti pisləşib", yazan Aleksanyan bununla yanaşı qeyd edib ki, Ermənistan həbsxanalarında tək və dəyişməz tibbi yardım ağrıkəsici inyeksiyaların tətbiq olunmasıdır: "Təbii ki, bununla məhbusun vəziyyəti yaxşılaşmır. Nəticədə təcili tibbi yardım çağırıldı və o, xəstəxanaya aparıldı. Bunun üçün isə bir saat vaxt getdi".

QHT sədri hakimiyyəti ittiham edərək bildirib ki, Ermənistanda məhkumlara qarşı münasibət dəyişilməyib və onlar cəmiyyətdən təcrid olunmaqla yanaşı, həm də onlarla qeyri-insan kimi davranırlar: "Armenak Mnjoyanın ürək problemləri var və bunu yaxşı bilirlər. Niyə təcili yardım dərhal çağırılmadı, həbsxanada tibbi yardım göstərməyin mümkün olmadığına görəmi? Bunun tək bir cavabı var, məhkumlara qarşı münasibətlər keçmiş zamanlardan bəri dəyişməyib. Armenak Mnjoyan 25 ildir ki, həbsdədir".

## Qorxuya düşən erməni səfiri milli azlıqlara hörmətdən dəm vurub



***Yeni ilin ilk günü Qazaxıstanın Karaqanda şəhərindəki restoranların birində ermənilərdən ibarət quldur dəstənin bu ölkənin bir vətəndaşını qətlə yetirməsi və üç nəfəri yaralaması yerli əhalinin böyük narazılığına səbəb olub. AZƏRTAC yerli KİV-lərə istinadla xəbər verir ki, qazax əhalisi arasında ermənilərə qarşı nifrətin güclənməsi fonunda Ermənistanın Qazaxıstandakı səfirliyi bəyanat yayaraq bu insidentdən millətlərarası təfriqə məqsədilə istifadə etməməyə çağırıb.***

Qətlə yetirilən 23 yaşlı Karaqanda sakininin ailəsinə başsağlığı verən və cinayətkarların tezliklə cəzalandırılacağına ümidvar olduğunu bildirən diplomatik korpusun bəyanatındakı erməni hiyləgərliyi ilə yazılmış cümlələr isə istehza doğurur: "Qazaxıstan milli azlıqlara böyük hörmətlə yanaşan çoxmillətli dövlətdir. Bu insidentlə ictimai rəydə manipulyasiya etmək və onu milli zəmində münaqişəyə çevirmək düzgün deyil". Faşist və qatı millətçi siyasət nəticəsində ərazisində milli azlıqlardan əsər-əlamət qalmayan və varlığını milli zəmində münaqişələr sayəsində qoruyub saxlayan Ermənistanın səfirinin bu sözləri törədilən cinayət fonunda qorxu hissinin əlamətidir. Qazax mətbuatının xəbərinə görə, cinayətkar ermənilərdən ikisi saxlanılıb, biri isə axtarışa verilib.

# Azərbaycan səhiyyəsi yüksək standartlara cavab verir

### *İlham Əliyev: "Sağlamlığı təmin və bərpa etmək üçün Azərbaycanda bütün şərait var"*



***Azərbaycanda səhiyyə sektorunun inkişafı ilə bağlı islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindəndir. Son illər Azərbaycan Prezidenti İlham Əliyevin, səhiyyənin inkişafı ilə bağlı həyata keçirdiyi məqsədyönlü siyasət, bu sahənin keyfiyyət və kəmiyyət göstəriciləri ilə zənginləşməsinə səbəb olub.***

Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması bu istiqamətdə aparılan siyasətin əsas prioritetləridir. Vətəndaşların pulsuz dərman vasitələri və preparatlarla təchiz olunması, müalicəsi və uşaqların bütün növ tibbi xidmətlərlə ən yüksək səviyyədə əhatə olunması səhiyyə sahəsində islahatların əsasını təşkil edir. Ölkənin hər yerində əhalinin tibbi xidmətlərlə keyfiyyətli şəkildə təmin olunması üçün bütün növ müayinə və müalicəni və əməliyyatları həyata keçirməyə imkan verən yeni müəssisələr yaradılmışdır. Bu cür müasir səhiyyə ocaqlarının yaradılması, ilk növbədə, vətəndaşların sağlamlığının qorunması və bərpası, onların müayinə-müalicə işini yüksək səviyyədə qurmaq üçün atılan addımlardandır. Ölkəmizdə son 15 il ərzində 650-yə yaxın xəstəxananın, tibb obyektinin əsaslı təmir olunaraq, yenidən tikilməsi fikirlərimizi əsaslandırır.

Bu günlərdə isə Bakıdakı Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsi görülən işlərin davamıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olarkən, çıxışında bildirdiyi kimi, bu gün ölkəmizin istənilən yerində yüksəkkeyfiyyətli tibbi xidmət almaq mümkündür: "Demək olar ki, mərkəzi şəhər və rayon xəstəxanalarının tikintisi və əsaslı təmiri prosesi başa çatır, bir neçə xəstəxana öz açılışını gözləyir. Əminəm ki, yaxın 1-2 ildə bu məsələ də öz həllini tapacaq. Bu, ölkəmizin səhiyyə sisteminə verilən çox böyük töhfədir. Çünki bu gün hər bir şəhərdə, rayonlarımızın mütləq əksəriyyətində ən müasir standartlara cavab verən tibb müəssisələri fəaliyyət göstərir və vətəndaşlara xidmət edir. Əgər buna nail olmasaydıq, əgər səhiyyə sahəsinin maddi-texniki bazasını yaratmasaydıq, biz bu gün apardığımız siyasəti apara bilməzdik. Çünki bu gün sosial siyasətin tərkib hissəsi olan səhiyyə sahəsindəki islahatlar, qoyulan investisiyalar bir məqsədi güdür ki, Azərbaycan vətəndaşları sağlam olsunlar, Azərbaycanda yüksək səviyyəli tibbi xidmət ala bilsinlər".

Artıq bir neçə ildir ki, Cənab Prezidentin göstərişi ilə vətəndaşların kütləvi müayinədən keçmə kampaniyası aparılır. Belə ki, ölkəmizdə 5 milyondan çox Azərbaycan vətəndaşı hər il pulsuz tibbi müayinədən keçir. "5 milyondan çox insanın bu imkanlardan istifadə etməsi, bizim siyasətimizin qələbəsidir"- deyən dövlət başçısı bildirib ki, Azərbaycan nadir ölkələrdəndir ki, belə genişmiqyaslı sosial layihə icra edilir: "Mən dəfələrlə bildirmişdim ki, Azərbaycan vətəndaşları, ildə ən azı bir dəfə, tibbi müayinədən keçsinlər. Şadam ki, bu çağırışlar həyatda öz əksini tapır. Xüsusilə, nəzərə alsaq ki, hər bir yerdə müayinədən keçmək üçün şərait var..."

Elə Səhiyyə Nazirliyinin Bakıdakı Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunda əsaslı yenidənqurmadan sonra yaradılan şərait əhalinin tam müayinə və müalicəsində önəmli müəssisədir. Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutundakı oftalmoloq, stomatoloq, terapevt, USM, EKQ, balneoloji vanna və digər otaqları müasir tibbi avadanlıqla təchiz olunub. "Bu institutun Azərbaycanda xüsusi yeri vardır" - deyən ölkə Prezidenti təxminən bir əsrə bərabər ömrü olan bu bərpa mərkəzinin yenidənqurmadan sonra indi ikinci həyatı başladığını diqqətə çatdırıb: "Əlbəttə ki, bu gün burada yaradılan müasir şərait ən yüksək standartlara cavab verir. Həm təmir-tikinti işləri çox böyük peşəkarlıqla, zövqlə aparılıb, həm də burada quraşdırılan müasir avadanlıq, əlbəttə, xəstələrə ən yüksək səviyyəli xidmət göstərəcəkdir. Bu gün öz sağlamlığını bərpa etmək istəyənlər mütləq buraya gəlib şəfa tapacaqlar".

Bu gün ölkəmizdə əvvəllər əlacı olmayan bir sıra xəstəliklər müalicə edilir, mürəkkəb əməliyyatlar, o cümlədən, qaraciyər transplantasiyası, süni oynaq və açıq ürək əməliyyatları aparılır. Bütün bunlar Cənab Prezidentin səhiyyəyə qayğısının göstəricisidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Bakı Prosesi" əməkdaşlıq və dialoqu təşviq edən qlobal xoşməramlı çağırışıdır



***Bu gün Azərbaycan müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqa dair sanballı tədbirlər keçirilməsi üçün mühüm məkana çevrilib. Milli mədəniyyətlərin qovuşduğu diyar, tolerantlıq məkanı olan Azərbaycanda müxtəlif millətlər və xalqlar dini-etnik mənsubiyyətindən asılı olmayaraq, mehriban dostluq şəraitində yaşamış və bu gün də müstəqil dövlətimiz müxtəlif xalqların və millətlərin birgəyaşayış ənənələrini qoruyub-saxlayır. Ölkəmizdəki müxtəlif dil və mədəniyyətlərin eyni səviyyədə qəbul olunması, multikultural, çoxdinli mühitdə harmoniya və bərabərlik şəraitində yaşamaq mədəniyyəti təbliğ olunur. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonfessiyalı diyar kimi, dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı etmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmiz əsrlər boyu burada yaşayan bütün millətlərin və dinlərin nümayəndələri üçün Vətən olmuşdur: "Biz fəxr edirik ki, bu gün də müstəqil Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Bu, bizim böyük sərvətimizdir, böyük üstünlüyümüzdür və hesab edirik ki, Azərbaycanın uğurlu inkişafında bu amil də öz rolunu oynamışdır".***

Belə bir məkanda - Odlar Diyarında 2008-ci ildən "Bakı Prosesi" başlanılmışdır. "Bakı Prosesi" Azərbaycan Respublikasının təşəbbüsü ilə 2008-ci ildə mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması məqsədilə irəli sürülmüşdür. Belə ki, Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda konfransında islam və Qərb sivilizasiyaları, eləcə də, xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafı məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Bakı Prosesi" təşəbbüsü irəli sürülmüşdür. Konfransda "Mədəniyyətlərarası dialoqu təşviq etmək naminə Bakı Bəyannaməsi" qəbul edilmişdir.

Azərbaycanın belə bir qlobal hərəkatın təşəbbüskarı kimi çıxış etməsinin əsasında ölkəmizdə tarixən fərqli dini mənsubiyyəti olan icmaların, milli-etnik qrupların və zəngin mədəni müxtəlifliyin olması dayanır. Ötən on il ərzində ölkədə "Bakı Prosesi" çərçivəsində, həmçinin, bu təşəbbüsün məqsədləri istiqamətində çoxsaylı beynəlxalq tədbirlər və layihələr gerçəkləşdirilib. UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları BMT və strukturlarının mədəniyyətlərarası dialoqun qurulması və inkişafı, irqi ayrı-seçkiliyə və dözümsüzlüyə qarşı mübarizə sahəsində qlobal platforma statusu qazanmışdır. BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakıda keçirilməsi də bu uğurlu prosesin və fəaliyyətin nəticəsidir.

Müxtəlif mədəniyyətlərin və qitələrin qovşağında yerləşən Azərbaycanın həm geosiyasi vəziyyəti, həm də mədəni zənginliyi "Bakı Prosesi" çərçivəsində mədəniyyətlərarası dialoq təşəbbüslərini Avropa və ona qonşu regionların hüdudları çərçivəsindən çıxarıb, daha qlobal səviyyəyə yüksəltməyə imkan verdi. Bu mənada, "Mədəniyyətlərarası dialoqa dair Bakı Prosesi"nin davamı olaraq, Prezident İlham Əliyevin dəstəyi ilə 2011-ci ilin aprelində Bakıda "Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu"nun keçirilməsi təşəbbüsü irəli sürüldü. Prezident İlham Əliyev xarici tərəfdaşların və tədbir iştirakçılarının müraciətləri, ölkəmizin bu sahədə davamlı fəaliyyətinin təmin edilməsi məqsədilə forumun hər iki ildə bir dəfə keçirilməsi ilə bağlı 2011-ci il mayın 27-də Fərman imzaladı. Fərmana uyğun olaraq, ölkə başçısının himayəsi və iştirakı ilə "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşamaq" şüarı altında 2013-cü ilin mayında Bakıda İkinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirildi. Forumun əsas tərəfdaşları qismində, yenə də UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, İSESCO və BMT-nin Dünya Turizm Təşkilatı kimi beynəlxalq qurumlar çıxış etdilər. Müxtəlif din və mədəniyyətlərin daşıyıcıları Azərbaycanda sabit şəraitdə, qarşılıqlı anlaşma əsasında, birbirinə hörmət etməklə fəaliyyət göstərir. Bu, müxtəlif mədəniyyətlərin qovuşmasının deyil, toqquşmasının arzusunda olanlar üçün unikal bir cavabdır. Həm də tək sözdə deyil, əməli işdə cavabdır. Dövlət başçısının IV Bakı Beynəlxalq Humanitar Forumunda dediyi kimi: "Multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu da aydındır. Bu, ayrı-seçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir".

2015-ci il mayın 18-19-da "Bakı Prosesi" çərçivəsində paytaxtımız yenidən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi etdi. Forumda, bir daha sübut olundu ki, "Bakı Prosesi" ölkə başçısının dünya xalqları və mədəniyyətləri arasında qarşılıqlı hörmət və anlayışlı, əməkdaşlıq və dialoqu təşviq edən platforma və layihələri birləşdirən qlobal xoşməramlı çağırışıdır. Bu, həm də dünyada milli, irqi, dini və mədəni ziddiyyətlərin daha da artdığı, ekstremist düşüncə tərzinin genişləndiyi bir dövrdə Azərbaycanın multikultural resurslarının, tarixən malik olduğumuz mehriban birgəyaşama ənənələrinin beynəlxalq səviyyədə model kimi istifadə olunması və ölkəmizin belə məsələlərdə interkultural körpü rolunun önə çıxmasına yönəldilmiş fəaliyyətdir. Yəni "Bakı Prosesi" həm multikultural, həm də interkultural beynəlxalq və yerli fəaliyyətlərin davamlı məcmusudur.

V Bakı Beynəlxalq Humanitar Forumu isə 2016-cı il sentyabrın 29-da Heydər Əliyev Mərkəzində keçirildi. Forumun işində dünyanın 80-ə yaxın ölkəsindən 400-dən çox nümayəndə iştirak edirdi. Beşinci Bakı Beynəlxalq Humanitar Forumunda insanların kütləvi yerdəyişməsi şəraitində insan kapitalının qorunmasının önəmi, davamlı inkişafın əsası kimi, jurnalistikanın informasiya dövrünə transformasiyası və onun sivilizasiyalararası dialoqun təmin edilməsində rolu, davamlı inkişaf və ekoloji sivilizasiya və s. mövzularda dəyirmi masalar keçirildi. V Bakı Beynəlxalq Humanitar Forumunun Yekun Bəyannaməsi, xususilə, yaddaqalan və əhəmiyyətli oldu. Bəyannamədə çox sayda humanitar problemlərin, xüsusilə, təhsil və səhiyyə məsələlərinin həllinin mümkünlüyü, informasiya-kommunikasiya texnologiyalarının yayılması, "rəqəmsal fərqlər"in aradan qaldırılması, biliyə əsaslanan cəmiyyətin formalaşdırılması sahələrində qazanılmış əhəmiyyətli nailiyyətlər yüksək qiymətləndirilib.

Keçirilən tədbirlərin, davamı olaraq, keçən il oktyabrın 25-26-da Bakıda daha bir beynəlxalq tədbir VI Beynəlxalq Humanitar Forumu keçirildi. "Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda keçirilən forumda təhsil və maarif sistemlərinin təkmilləşdirilməsinə, mədəniyyətin və incəsənətin dəstəklənməsinə, informasiya təhlükəsizliyinin təminatına, intellektual mülkiyyətin müdafiəsinə və digər aktual məsələlərə dair ətraflı diskussiyalar aparıldı. Təbii ki, Bakının dünyada humanitar dialoqun həyata keçirildiyi paytaxta çevrilməsi də təsadüfi hal deyildi. Artıq altıncı dəfədir ki, Azərbaycanın paytaxtında baş tutan forumda 90-dan çox ölkənin nümayəndələrinin toplaşması və ölkənin sivilizasiya, mədəniyyətlərarası, millətlərarası və dinlərarası münasibətlərin inkişafına dair dünya miqyasında dialoqun tərəqqisi üçün ən əhəmiyyətli məkanlardan birinə çevrilməsi dövlət başçısının həyata keçirdiyi daxili və xarici siyasətin məntiqidir.

Azərbaycan Prezidenti İlham Əliyev VI Bakı Beynəlxalq Humanitar Forumun açılış mərasimində çıxışında vurğuladığı kimi, forumda müzakirə ediləcək məsələlər gələcək humanitar əməkdaşlıq üçün çox önəmli olacaq, xaricdən gələn qonaqlar forumun işinə çox böyük töhfə verəcəklər: "Humanitar məsələlərin müzakirəsi çox önəmlidir. Çünki biz müasir dünyada bu sahədə həm nailiyyətləri, həm də problemləri görürük. Azərbaycan bu sahəyə çox böyük önəm verən ölkələrdən biridir. Ölkəmizdə humanitar əməkdaşlığa dair bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir". "Bakı Prosesi"nin 10 illiyinin qeyd olunması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanan 17 noyabr 2017-ci il tarixli Sərəncama uyğun olaraq, il ərzində müxtəlif tədbirlər həyata keçirildi. Bu gün, əlbəttə, ölkəmizdə keçirilən tədbirlərin müvəffəqiyyətlə reallaşdırılmasında "Bakı Prosesi"nin əhəmiyyətli rolu vurğulanır. Sivilizasiyalar arasında qədim dövrlərdən bəri körpü rolunu oynamış Azərbaycanın mədəniyyətlərarası dialoqa hazırkı mərhələdə verdiyi töhfələr beynəlxalq miqyasda böyük rezonans doğurur. Azərbaycan dövləti tərəfindən həyata keçirilən xoşməramlı siyasət, həmçinin, müxtəlif mədəniyyətlərin və qitələrin qovuşuğunda yerləşən ölkəmizin həm geosiyasi vəziyyəti, həm də mədəni zənginliyi "Bakı Prosesi" çərçivəsində mədəniyyətlərarası dialoq təşəbbüslərini Avropa və ona qonşu regionların hüdudları çərçivəsindən çıxararaq, daha qlobal səviyyəyə yüksəltməyə nail olmuşdur.

***ZÜMRÜD BAYRAMOVA***

# Bakı-Tbilisi-Qars Azərbaycana böyük dividendlər gətirəcək

***Özündə avtomobil yollarını, dəmir yolu nəqliyyatını, dəniz və hava yolu ilə daşınmaları birləşdirən nəqliyyat və logistika sahələri hər bir ölkənin iqtisadiyyatının inkişafının aparıcı istiqamətlərindən biri olub və olmaqdadır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilən müdrik siyasəti sayəsində ölkəmiz də istisna təşkil etmir və başqa sahələrlə yanaşı, məhz nəqliyyat və logistikanı fəal inkişaf etdirir.***



Şəksiz ki, Azərbaycanın çox əlverişli coğrafi mövqeyi barədə xüsusi danışılmalıdır. Bu, ölkəmizə artıq indinin özündə təkcə regional deyil, həm də beynəlxalq əhəmiyyət daşıyan iri nəqliyyat layihələrinin əhəmiyyətli iştirakçısı və təşəbbüskarı kimi çıxış etmək imkanı verir.

Qonşu Türkiyə və Gürcüstanla sıx əməkdaşlığın nəticəsi olan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunu cəsarətlə ötən illərin əsas nəqliyyat layihələrindən biri saymaq olar.



Xatırladaq ki, BTQ Azərbaycan, Gürcüstan və Türkiyə arasında imzalanmış dövlətlərarası Saziş əsasında yaradılıb. Gözlənildiyinə görə, ilkin mərhələdə bu marşrut üzrə yükdaşımalarının həcmi 6,5 milyon ton təşkil edəcək, habelə təqribən 1 milyon sərnişin daşınacaq.

2017-ci il oktyabrın 30-da Bakı Beynəlxalq Dəniz Ticarət Limanında Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı münasibətilə təntənəli mərasim keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, onun xanımı Əminə Ərdoğan, Qazaxıstan Respublikasının Baş naziri Bakıtjan Saqintayev, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov, habelə Tacikistan və Türkmənistan nümayəndə heyətləri iştirak ediblər.

Bu yol çox böyük əhəmiyyət daşıyır, çünki Asiya və Avropanı Azərbaycan və digər tranzit ölkələr vasitəsilə ən qısa marşrutla birləşdirir. Bu yolla yüklər artıq daşınır və yükdaşımaların həcmi artacaq.

Bundan əlavə, İzmir limanının dəmir yolu vasitəsilə BTQ dəhlizi ilə birləşdiriləcəyi də istisna olunmur. Hazırda həmin layihə üzərində iş gedir. İzmir limanının BTQ ilə birləşdirilməsi Türkiyə ərazisindən yükdaşımalarının artmasına kömək edəcək.

Türkiyənin Qars şəhəri və Naxçıvan Muxtar Respublikası arasında dəmir yolu xəttinin tikintisi üzrə işlər başlanıb. Daha əvvəl bu barədə Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral məlumat verib.

E.Özoralın sözlərinə görə, BTQ layihəsi çərçivəsində bu istiqamətdə işlər aparılır. O deyib: "Biz Qarsı logistika mərkəzi kimi nəzərdən keçiririk. Onun tikintisi üzrə işlər davam edir. İndi işlərin hansı mərhələdə olduğunu deməyə çətinlik çəkirəm, lakin, çox güman, yaxın iki ildə başa çatacaq. Hazırda BTQ layihəsinin davam etdirilməsi istiqamətində işlər aparılır. Söhbət dəmir yolunun Qarsdan Naxçıvana uzadılmasından gedir və bu istiqamətdə işlər artıq başlayıb".

Bakı-Tbilisi-Qars dəmir yolunun Türkiyəni Avropa ilə birləşdirdiyini bildirən səfir deyib: "Hazırda BTQ ilə Qazaxıstandan Mərsin limanına yüklər daşınır. Bəzi yüklər Rusiyadan Türkiyəyə və Avropaya göndərilir. Gələcəkdə yükdaşımalarının həcminin necə olacağını deməyə çətinlik çəkirəm. Yalnız onu deyə bilərəm ki, bütün potensialdan istifadə olunacaq".

Azərbaycan üçün BTQ-dən gəlirin yeganə mənbəyi yükdaşımaları və tranzit deyildir.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov ötən ilin sonunda jurnalistlərə müsahibəsində deyib ki, Azərbaycan və Türkiyə BTQ üçün vaqonları Sumqayıt Texnoloji Parkında birgə istehsal edə bilərlər. O bildirib ki, Bakı-Tbilisi-Qars dəmir yolunda istifadə olunacaq vaqonların yeni növlərinin istehsalı planlaşdırılır. Cavid Qurbanovun fikrincə, Sumqayıt Texnoloji Parkında vaqonların birgə istehsalına başlamaq olar. Onun sözlərinə görə, Avropa standartlarına cavab verəcək yeni vaqonlardan istər MDB, istərsə də Avropa ölkələrində istifadə etmək mümkün olacaq.

Bu o deməkdir ki, layihənin Azərbaycanda həyata keçirilməsi sayəsində BTQ-nin digər üstünlükləri ilə bərabər, birgə vaqon istehsalı da təşkil ediləcək, bu da daha bir mühüm layihənin inkişafını - texnoloji parkların və yeni iş yerlərinin yaradılmasını təmin edəcək.

Cavid Qurbanov deyib ki, "Stadler Rail Group" şirkətinin istehsal etdiyi sərnişin vaqonları artıq 2019-cu ilin fevral-mart aylarında gətiriləcək. On vaqon gətirilən kimi, Bakı-Tbilisi-Qars sərnişin qatarı istifadəyə veriləcək.

Heç şübhəsiz, bu fakt ölkəmizin iqtisadiyyatına müsbət təsir göstərəcək.

BTQ sərnişindaşımaları sahəsinə və turizm sektoruna birmənalı şəkildə təsir göstərəcək. ABŞ-ın nüfuzlu CNN kanalının Bakı-Tbilisi-Qars dəmir yolunu səyahətlər barədə təsəvvürləri dəyişdirə biləcək yeni dəmir yolu marşrutları sırasına daxil etməsi bunu bir daha təsdiq edir.

CNN saytında yerləşdirilən məqalədə deyilir: "Bu il dəmir yolu ilə səyahət həvəskarları üçün bütün dünyada açılan, iri şəhərləri birləşdirən və yolu qısaldan sürətli yeni marşrutlarla zəngin olan yaxşı ildir. Səyyahlar təyyarə ilə uçuşa alternativ axtarırlarmı, yoxsa sadəcə qatarda sürətlə getmək istəyirlərmi, fərqi yoxdur, bu marşrutlar səyahətlər üçün yeni imkanlar təklif edir".

Bakı-Tbilisi-Qars dəmir yolu 2017-ci ildə açılıb. Azərbaycanın və Gürcüstanın paytaxtlarını Türkiyənin qədim Qars şəhəri ilə birləşdirən bu yolun uzunluğu 826 kilometrdir. 2019-cu ildə BTQ yeni marşrut təqdim edəcək. CNN saytındakı materialda deyilir ki, bu marşrutla Bakı, habelə Türkiyənin Ankara və İstanbul şəhərləri arasında sərnişin daşınacaq.

Magistral yol üçün vaqonlar istehsal edən İsveçrənin "Stadler Rail Management" şirkətinin məlumatına görə, qatarların maksimum hərəkət sürəti saatda 160 kilometrə bərabər olacaq.

Hazırda səyyahlar Bakı və Ankara arasındakı yolu bir neçə nəqliyyat vasitəsi dəyişərək 40 saata qət edirlər. Yeni dəmir yolu xəttinə getdikcə daha çox ölkə maraq göstərir. Bu isə o deməkdir ki, "Bakı-Tbilisi-Qars" layihəsi gələcəkdə Azərbaycana böyük dividendlər gətirəcək və çox uğurlu olacaq.

## Bu il bölgələrdə 5 "ASAN xidmət" istifadəyə veriləcək

asan xidmət

Bu il Azərbaycanda daha 5 "ASAN xidmət" mərkəzi əhalinin istifadəsinə veriləcək. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, il ərzində Tovuz, Ağcabədi, Kürdəmir, Şamaxı və Balakən rayonlarında "ASAN xidmət" mərkəzləri açılacaq. Bununla da "ASAN xidmət" mərkəzlərinin sayı 20-ə çatmış olacaq. "ASAN xidmət" mərkəzləri olmayan bölgələrdə səyyar "ASAN xidmət" fəaliyyət göstərir.

## SOCAR-ın vitse-prezidenti Parisdə beynəlxalq tədbirdə iştirak edəcək



Yanvarın 11-də Fransa Respublikasının paytaxtı Parisdə "Metan emissiyalarının azaldılması üzrə rəhbər prinsiplər" mövzusunda tədbir keçiriləcək. AZƏRTAC xəbər verir ki, tədbir BP, "Eni", "Equinor", "ExxonMobil", Shell, "Total" və "Wintershall" şirkətlərinin təşəbbüsü ilə təşkil olunur. Tədbirdə SOCAR-ı şirkətin ekologiya üzrə vitse-prezidenti Rəfiqə Hüseynzadə təmsil edəcək.

Qeyd edək ki, qlobal istiləşmə və iqlim dəyişmələri bu gün bütün bəşəriyyəti narahat edən problemlərdəndir. Bu kimi məsələlərin həllində SOCAR beynəlxalq əməkdaşlığa xüsusi önəm verir.

# Baş prokuror: “Gəncə hadisələri ilə bağlı intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir”



*Gəncə hadisələri ilə bağlı intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir. Baş Prokurorluğun mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, bunu 2018-ci ildə prokurorluğun mərkəzi aparatı tərəfindən görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsində çıxış edən Baş prokuror Zakir Qaralov deyib*

O qeyd edib ki, hesabat dövründə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi tərəfindən respublikada ictimai rezonansa səbəb olmuş bir sıra cinayətlərin, o cümlədən qəsdən adam öldürmə cinayətlərinin keyfiyyətli istintaq edilməsi və təqsirli şəxslərin ifşa olunaraq məhkəmə məsuliyyətinə verilməsi təmin edilib.

Bildirilib ki, hesabat dövründə Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğun peşəkar əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu tərəfindən həyata keçirilmiş tədbirlərlə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində böyük ictimai rezonansa səbəb olan bir sıra cinayət işlərinin istintaqı müvəffəqiyyətlə aparılıb. Bu işlər sırasında radikal dindar Yunis Səfərovun iyulun 3-də Gəncə şəhər İcra Hakimiyyətinin başçısına və polis əməkdaşına qarşı məqsədyönlü şəkildə əvvəlcədən planlaşdırılmış terror aktı, həmçinin ölkəmizin konstitusiya quruluşunun zorla dəyişdirilməsi, terrorçuluq və sair xüsusilə ağır cinayət əməlləri törətdiklərinə görə istintaq edilən iş üzrə ümumilikdə, mütəşəkkil dəstənin üzvləri olan 18 nəfərin təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində həbs qətimkan tədbirlərinin seçilməsi təmin edilib, həmçinin 11 nəfər təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində beynəlxalq axtarış elan olunub. Hazırda cinayətlərin törədilməsinə aidiyyəti olan bütün şəxslərin və cinayət xarakterli bütün xüsusatların müəyyənləşdirilməsi istiqamətində intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Bundan başqa, Y.Səfərovun müdafiəsi adı altında radikal dini yönümlü bir qrup şəxs tərəfindən Gəncə şəhər İcra Hakimiyyətinin inzibati binasının qarşısında zorakılıq aktları, hakimiyyət nümayəndələrinə silahlı müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaş törədilməsi, xidməti vəzifələrini yerinə yetirən iki polis əməkdaşının qəsdən öldürülməsi və sair faktlar üzrə ibtidai istintaqı aparılan cinayət işi üzrə 59 nəfər təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barələrində həbs qətimkan tədbiri seçilib, 1 nəfər barəsində isə həbsli axtarış elan olunub.

Z.Qaralov vurğulayıb ki, həmin cinayət işindən 36 şəxs barəsində 4 cinayət işi ayrıca icraata ayrılaraq baxılması üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib, hazırda cinayət işi üzrə digər şəxslər barəsində istintaq davam etdirilir. Cinayətkarlığa qarşı mübarizə sahəsində terrorçuluq, müxtəlif xarakterli ekstremizm təzahürlərinə qarşı həyata keçirilən mübarizə tədbirləri də diqqət mərkəzində saxlanılmaqla yanaşı, cinayəti doğuran səbəb və şəraitin aşkarlanaraq müvafiq qabaqlayıcı tədbirlərin görülməsi təmin edilib.

# Anna Akopyanın xarici səfərləri hansı vəsaitlər heasabına baş tutur?




*“Mülki aviasiyanın rəhbəri Tatevik Revazyan üçün dövlət büdcəsindən ayrılan vəsait hesabına bahalı avtomobil alınıb”. SİA xəbər verir ki, bu barədə Ermənistanın rusdilli galatv.am saytında “Nikol Paşinyanın “serjləşməsi” üçün kart-blanş” başlığı ilə dərc olunmuş məqalədə qeyd edilib. Bildirilib ki, gənc qıza alınmış “Toyota Camary” avtomobilinin dövlət büdcəsindən əldə edilməsi ilə bağlı həmin xəbərin altından sərt fikirlər yazılıb. İnsanların çoxu bunu dövlət büdcəsinə şəxsi əmlak kimi yanaşma olaraq qiymətləndirib.*

Bununla yanaşı, sözügedən yazıda bildirilir ki, Nikol Paşinyanın arvadı Anna Akopyanın dövlət məmuru olmadığı, eləcə də ictimai funksiyaları icra etmədiyi halda özünün İsveçrəyə işgüzar səfəri ilə bağlı elan verir: “Çox məntiqli suallar yaranır, Anna Akpoyanın xarici səfərləri hansı vəsaitlər heasabına baş tutur və o, dəqiq hesabat verərək xərclənən vəsaitlərin haradan əldə edildiyini təqdim edirmi? Bu kimi ədalətli suallar ictimaiyyətin müəyyən kəsimi tərəfindən səslənərkən, fərqli cavablar da olur, “Yaxşı edib. Kimin nəyinə lazımdır?”. Anna Akopyan kimin qarşısında hesabat verirsən, necə hesab edirsənsə, elə də et”. “Nə oldu, Serjin pullarını saymırdınız, yoxsa ki, onun sizi necə talan etməyi xoşunuzamı gəlirdi?”. Və bütün cavablar bu xüsusiyyətdə”. Məqalədə bildirilir ki, məhz bu yollarla ictimaiyyətin böyük hissəsi mövcud hakimiyyətə sərhədsiz azadlıq verir: “Bu, Nikol Paşinyanın “serjləşməsi” üçün kart-blaşdır ki, vətəndaşlar könüllü olaraq ona və komandaşlara təqdim edir, bununla da inqilab ideyasını qiymətdən salır. Nəyə görə Paşinyana hər şeyi edə bilmək “mükafatı” verilir?”.

Bununla da ötən ilin aprelində “məxməri inqilab” adı altında baş vermiş çevrilişin bir şəxsə deyil, korrupsiyaya, ədalətsizliyə qarşı edildiyini xatırladan müəllif yazır ki, əgər belə davam edərsə, Paşinyan və komandasına təqdim edilən bənzər “mükafatlar” dəhşətli nəticələrə gətirib-çıxara bilər.

**Rövşən**

# AMEA Naxçıvan Bölməsinin 2019-cu il üçün iş planı təsdiqlənib



AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin bu ildə keçirilən ilk iclasında bölmənin sədri, akademik İsmayıl Hacıyev Rəyasət Heyətinin və elmi-tədqiqat müəssisələrinin 2019-cu il üçün nəzərdə tutulan iş planlarını açıqlayıb. Bölmənin informasiya şöbəsindən AZƏRTAC-ın Naxçıvan bürosuna verilən məlumata görə, akademik aparılacaq tədqiqatların elmi səmərəliyini yüksəltmək üçün institut direktorlarına müvafiq tapşırıq və tövsiyələr verib.

Sonra 40 maddədən ibarət iş planı və mövzular Rəyasət Heyətində müzakirə olunaraq təsdiqlənib. İclasda, həmçinin akademiyanın prezidenti, akademik Akif Əlizadənin “AMEA-nın elmi müəssisə və təşkilatlarında iş vaxtının uçotunun aparılmasının təmin edilməsi barədə” sərəncamından da danışılıb. Sözügedən sərəncamdan irəli gələn məsələlərlə bağlı bölmənin maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinin rəisi Hənifə Hənifəyev məlumat verib. Sonda bir sıra cari məsələlərə baxılıb.

# Ermənistan və Gürcüstan BMT-nin ən yoxsul ölkələridir

BMT Baş Assambleyası təşkilatın yaxın 3 ildə xərclərini bölüşdürüb. BMT-nin xəbərlər xidməti üzv ölkələrin təşkilatın büdcəsinə yeni ödənişi üzrə cədvəli açıqlayıb. Trend-in məlumatına görə, qəbul edilmiş qərara uyğun olaraq ABŞ əvvəlki kimi maksimum həcmdə - BMT-nin bütün xərclərinin 22 faizi - ödəniş edəcək. Uzun illərdən sonra Çin Yaponiyanı keçərək təşkilatın büdcəsinə ən çox ödəniş edən ikinci ölkə (xərclərin 12 faizi) olub.



Hər bir ölkə BMT-nin xərclərinin müəyyən hissəsini ödəməlidir: iri ölkələr maksimum 22, kiçik ölkələr isə 0,01 faiz.

İri “sponsor”ların siyahısına Yaponiya (8,564 faiz), Almaniya (7) və Fransa da (4,427) daxildir. Rusiya 2,405 faiz ödənişlə 8-cı sıradadır. Bu göstərici üzrə Gürcüstan (0,008 faiz ödəniş) və Ermənistan (0,007) BMT-nin ən yoxsul ölkələri hesab olunur.

# Ermənistan ordusunun 80-ə yaxın əsgəri hospitala yerləşdirilib

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən düşmən ordusunun bölmələrində qışın gəlməsi ilə əlaqədar xəstələrin sayı kəskin surətdə artıb. Ermənistan KİV-lərinin yaydığı xəbərdə deyilir ki, qar yağması və soyuqların düşməsi aclıqdan, şəraitsizlikdən əziyyət çəkən hərbçilər üçün ciddi bəlaya çevrilib.



Yerli KİV-lərdə yer alan xəbərlərdə qeyd olunub ki, son bir neçə gündə soyuqdəymə və yüksək hərarət diaqnozu ilə 79 hərbi qulluqçu Ağdərə hərbi hospitalına yerləşdirilib. Komandirlər və tibb xidməti rəisləri xəstəliklərin yayılmasının qarşısını almağa çalışsalar da, dərman preparatlarının və tibbi ləvazimatların çatışmaması səbəbindən profilaktik tədbirlər görmək mümkün olmur. Faktla bağlı araşdırma aparılır.

# 2018-ci il: On dörd mühüm hadisənin geosiyasi analizi və proqnozlar



***Ənənəvi olaraq, hər ilin sonunda həmin müddət ərzində baş verən xüsusi əhəmiyyətli hadisələr müəyyənləşdirilir. Burada vahid meyar yoxdur. Biz, müstəqil dövlət quruculuğu baxımından ciddi əhəmiyyəti olan hadisələri müəyyənləşdirib, onların üzərində dayanmaq qərarına gəldik. Təhlil göstərdi ki, cari ildə Azərbaycan dövlət olaraq bütün istiqamətlərdə böyük uğurlar əldə edib. Onların sayı çoxdur. Ancaq geosiyasi, iqtisadi, siyasi, enerji, nəqliyyat, logistika və humanitar aspektlərdə daha çox fərqlənən bir sıra hadisələri qeyd etmək olar. Onları şərti olaraq qruplara da ayırmaq mümkündür. Hər bir halda aydın olur ki, Azərbaycan 2018-ci ildə elə hadisələrə şahid olub ki, onlar müstəqil və demokratik dövlət quruculuğunda yeni mərhələnin başladığını göstərir. Həmin kontekstdə bir sıra özəl məqamların təhlil edilməsini vacib saydıq.***

## Prezident seçkisindən sonra: beynəlxalq əlaqələrin yeni üfüqləri

Hər il olduğu kimi, 2018-ci il də Azərbaycan üçün bir çox hadisələrlə yaddaqalan olub. Ölkə rəhbərliyinin apardığı uğurlu siyasət müxtəlif sahələrdə əhəmiyyətli hadisələrlə daha da zənginləşib. Ekspertlər həmin hadisələri fərqli meyarlar üzrə təsnif edirlər. Nəticədə, onların sayı da bir-birindən fərqlənir. Ancaq əsas olan ondan ibarətdir ki, göstərilən hadisələrin hər biri sözün həqiqi mənasında siyasi, geosiyasi, iqtisadi, energetik və humanitar əhəmiyyətlidir. Çünki Azərbaycan rəhbərliyi apardığı siyasətdə bütün istiqamətlər üzrə səmərəli proqramlar reallaşdırıb ki, onların da hər birinin nəticələri maraq doğurur.

Biz bu yazıda üstünlük verdiyimiz hadisələrdən yalnız 14-ünün üzərində dayanacağıq. Ancaq bu, qətiyyən başqa mövcud faktların arxa plana atılması anlamına gəlmir. Burada, sadəcə, müəyyən meyarlara görə seçim edilib. Həmin hadisələri bir neçə qrupda birləşdirmək olar. Birincisi ölkənin siyasi həyatı ilə birbaşa bağlı olan mühüm hadisələri, ikincisi beynəlxalq geosiyasi dinamika ilə əlaqəli olan hadisələri, üçüncüsü enerji-nəqliyyat sahəsində əməkdaşlıqla bağlı olan hadisələri, dördüncüsü, beynəlxalq hüquq ilə bağlı əhəmiyyətli hadisə və ya sənədləri əhatə edir.

Hər şeydən öncə, növbəti prezident seçkisinin keçirilməsini vurğulamaq gərəkdir. Aprelin 11-də baş tutan bu seçkidə səslərin 86,02 faizini toplayan İlham Əliyev inamlı qələbə qazanaraq yeddiillik müddətə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu proses bütün dünyaya Azərbaycanda seçki mədəniyyətinin yüksək səviyyədə olduğunu nümayiş etdirdi. Eyni zamanda, Azərbaycan beynəlxalq hüquq normaları çərçivəsində, şəffaf və demokratik seçki keçirən ölkə kimi bir daha özünü təsdiq etdi.

Bu tezisin sübutu prezident seçkisindən sonra dünyanın böyük dövlətlərinin rəhbərlərinin İlham Əliyevə ünvanladıqları məktublarda ifadə edilən fikirlərdə və konkret əməkdaşlıq təkliflərində öz ifadəsini tapdı. Onlardan bir neçəsini xatırladaq. ABŞ Prezidenti D.Tramp İlham Əliyevə birinci dəfə seçkinin nəticələri elan olunandan sonra, ikinci dəfə isə AXC-nin 100 illiyi münasibəti ilə məktub yazaraq həm məmnunluğunu ifadə etdi, həm də Azərbaycanla əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olduğunu açıq yazdı. Rusiya Prezidenti V.Putin Azərbaycan Prezidentini seçkidəki uğuru münasibəti ilə ilk təbrik edənlər sırasında idi. Eyni zamanda, V.Putin Azərbaycanın dövlət başçısı ilə bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməyə hazır olduğunu bəyan etdi.

Türkiyə Prezidenti R.T.Ərdoğan qardaş dövlətin növbəti dəfə Prezidenti seçilən İlham Əliyevi ürəkdən təbrik etdi və Türkiyəyə səfərə dəvət etdi. Bunlarla yanaşı, Fransa, Almaniya, Böyük Britaniya və digər dövlətlərin başçıları Azərbaycanda prezident seçkisinin nəticələrini qəbul etdiklərini bəyanlayıb, ölkə rəhbəri ilə əməkdaşlıqda maraqlı olduqlarını ifadə etdilər. Konkret nəticələr də oldu: Fransa Prezidentinin dəvəti ilə İlham Əliyev Parisə, Böyük Britaniyanın Baş nazirinin dəvəti ilə Londona səfər etdi və İtaliyanın Prezidenti Azərbaycana ilk səfərini reallaşdırdı.

Bütün bunların siyasi və geosiyasi mənası nədən ibarətdir? Aydındır ki, dünyanın bütün dövlətləri Azərbaycanda növbəti prezident seçkisinin demokratik, şəffaf və beynəlxalq hüquq normaları çərçivəsində keçdiyini rəsmən etiraf etdilər. Eyni zamanda, İlham Əliyev iqtidarının legitimliyi nəinki tam qəbul edildi, həm də Azərbaycan Prezidenti sözünə əməl edən, müdrik və etibarlı tərəfdaş olaraq yüksək qiymətləndirildi və onunla əməkdaşlığa maraq ifadə edildi. Bütün bunlar məntiqi olaraq Azərbaycanın müstəqil, suveren və etibarlı tərəfdaş dövlət kimi beynəlxalq aləmdə nüfuzunu daha da yüksəltdi.

### İslahatlar ölkəsi: dünya miqyasında etiraf

Həmin kontekstdə digər mühüm hadisə kimi 2018-ci ildə Azərbaycanın dünyada ən çox islahat aparan ölkə elan olunmasını göstərə bilərik. Belə ki, Dünya Bankı tərəfindən yayılan “Doing Business 2019” hesabatında Azərbaycan 10 ən islahatçı dövlət siyahısına daxil edilib və ən çox islahat aparan ölkə kimi elan olunub. Hesabata əsasən, Azərbaycan 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlib.

Bu hadisənin həm geosiyasi, həm də siyasi əhəmiyyəti böyükdür. Çünki illərdir ki, Azərbaycanı başqa cür tanıtmağa çalışan bəzi dairələr, əsl cavablarını bir daha aldılar. Dünya Bankı çox ciddi təşkilatdır və onun hesabatı real faktlara əsaslanır. Bu faktlar isə göstərir ki, təkcə Cənubi Qafqazda, postsovet məkanında deyil, bütün dünyada belə Azərbaycan səviyyəsində sistemli, düşünülmüş və ardıcıl islahatlar aparan ölkə azdır. Bəs onda bir sıra beynəlxalq reytinq təşkilatlarının, QHT-lərin, beyin mərkəzlərinin və sairlərin Azərbaycan haqqında həqiqətdən uzaq informasiyalar yayması hansı məqsədi daşıyır? Məhz bu kimi suallara ən yaxşı cavab “Doing Business 2019” hesabatında vurğulanıb! Həmin səbəbdən bu hesabat mühüm hadisədir.

## Möhtəşəm ordu: hərbi paradlarda ifadə edilən qüdrət

Ölkəmizin siyasi-hərbi həyatı üçün əhəmiyyəti olan və yuxarıda vurğulanan məqamların məntiqi davamı kimi qəbul edilə bilən iki vacib hadisə də 2018-ci ildə baş verib. Onlardan biri Bakıda möhtəşəm hərbi paradların keçirilməsidir. Birinci hərbi parad

# 2018-ci il: On dörd mühüm hadisənin geosiyasi analizi və proqnozlar

iyun ayının 26-da Azərbaycan Ordusunun yaradılmasının 100 illiyi ilə bağlı təşkil olundu. Həmin gün Azadlıq meydanında təntənəli hərbi parad keçirildi. Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin 4 min nəfərədək şəxsi heyətinin iştirak etdiyi möhtəşəm paradda 240-dan çox hərbi texnika, gəmilər, 70-dən artıq təyyarə və helikopter, ən müasir raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, pilotsuz uçuş aparatları nümayiş olundu.

Bu hadisə Ermənistan rəhbərliyində böyük şok yaratdı. Azərbaycan Ordusunun nə dərəcədə inkişaf etdiyini hər kəs gördü. Rəsmi İrəvan o dərəcədə narahat idi ki, öz yaxın müttəfiqlərini belə Azərbaycana yardım etməkdə ittihamlara başladı. Rusiya, Belarus və Qazaxıstanı Ermənistan rəhbərliyi sərt şəkildə qınadı. Lakin sözügedən hərbi paradın geosiyasi, siyasi-hərbi və mənəvi zəfəri qərəzli ermənilərdə narahatlıq hissi oyatması ilə məhdudlaşa bilməz. Hərbi parad Azərbaycan dövlətçiliyi kontekstində ilin əhəmiyyətli hadisəərindən biridir.

Bu parad bütün dünyaya nümayiş etdirdi ki, Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və ordu quruculuğunu da əhatə edən inkişaf kursu son dərəcə səmərəlidir. Keçən əsrin 90-cı illərində öz havadarlarının yardımı ilə bir neçə hərbi əməliyyatı udan Ermənistan qarşısında nizamlı ordu dayanmırdı. Tarixi baxımdan qısa müddətdə Azərbaycan xalqı öz rəhbərlərinin uzaqgörən siyasəti sayəsində Cənubi Qafqazın ən təminatlı və döyüşkən ordusunu yaratdı! Parad ilk növbədə bunu təsdiq etdi! Onun fonunda digər əhəmiyyətli nüans bu tədbirin qardaş Türkiyə ordusu ilə birlikdə keçirilməsi ilə əlaqəlidir. Həmin məqam dünyaya ikinci bir mesajı verdi: Azərbaycan Ordusu Türkiyə Silahlı Qüvvələri ilə iç-içədir! Real olaraq bu iki ordu bir orqanizmdir. Ona görə də Azərbaycana təcavüz etmək istəyən hər kəs bilməlidir ki, qarşısında birləşmiş Azərbaycan-Türkiyə Ordusu var! Bu ordu(lar) yenilməzdirlər. Onun tarixin son mərhələsində ən azından 100 illik bir əməkdaşlıq təcrübəsi var! İkinci paradda bu özəllik daha parlaq şəkildə özünü göstərdi.

Bəli, 2018-ci il sentyabrın 15-də Azadlıq meydanı növbəti hərbi təntənənin məkanı oldu. Daha bir hərbi parad keçirildi. Bakının bolşevik-daşnak işğalından azad olunmasının 100 illiyinə həsr edilmiş paradı Azərbaycan və Türkiyə prezidentləri qəbul etdilər. Bu möhtəşəm parad Türkiyə Silahlı Qüvvələrinin məşhur “Mehtəran” birliyi “Mehtər marşı”nın, Azərbaycan və Türkiyə orduları hərbi qulluqçularının Qafqaz İslam Ordusunun süvari və piyadalarının qiyafəsində, hər iki ölkənin dövlət bayraqları altında tribuna önündən keçməsi ilə yadda qaldı.

Tam əminliklə deyirik: ikinci hərbi parad Ermənistan rəhbərliyi üçün ölümcül hadisə idi! İki qardaş ordunun yanaşı addımlayan əsgərləri, havada ustalıq nümayiş etdirən qırıcıları ox kimi düşmənin gözünə batdı! Ermənilərin havadarları da gördülər ki, regionda sabitlik və sülhü təmin etmək iqtidarında olan möhtəşəm hərbi qüvvə artıq mövcuddur. Bu, tarixi mesajdır. Keçən əsrin 90-cı illərindən müxtəlif istiqamətlərdən hərbi aspektdə sıxışdırılan Azərbaycanın öz ayaqları üzərində möhkəm dayandığının və onunla artıq təcavüz dilində danışmağın mümkün olmadığını göstərən hadisə idi.

Hərbi paradların geosiyasi möhtəşəmliyini savaş meydanında təsdiqləyən hadisə də 2018-ci ildə baş verdi. Biz, Naxçıvanda 11 min hektara yaxın ərazi və Şərurun Günnüt kəndinin işğaldan azad edilməsi ilə nəticələnən hərbi əməliyyatı nəzərdə tuturuq. Şərur rayonunun Günnüt kəndi və ətrafdakı mühüm strateji əhəmiyyətli yüksəkliklər 1992-ci ildə erməni silahlı birləşmələri tərəfindən işğal edilmişdi. Həmin ərazidə işğal edilmiş torpaqların sahəsi 11 min hektara yaxın idi. 26 ildən sonra Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə bu ərazi erməni işğalından azad edildi. Nəticədə, Azərbaycan Ordusu daha əlverişli mövqelərə yiyələndi. Konkret olaraq, “Xunut” dağı və “Ağbulaq” yüksəkliyi, “Qızılqaya” dağı və “Mehridağ” işğaldan azad olundu. Dərələyəz mahalının Arpa kəndi nəzarətə alındı. “Qızılqaya” yüksəkliyinin azad olunması ordumuza İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etmək imkanı yaratdı.

Bununla da 2018-ci ildə Azərbaycan qlobal geosiyasi və siyasi təsiri olan vacib siyasi-hərbi hadisələrin şahidi oldu. Əldə edilən nailiyyətlər bir daha göstərdi ki, ölkə rəhbərliyi son dərəcə aktiv siyasi fəaliyyət göstərir və səmərəli proqramlar həyata keçirir. Bu fikri həm də enerji-nəqliyyat sferasında atılan addımlara da aid etmək olar.

Enerji-hüquq sənədi və xarici siyasət: ilin yaddaqalan hadisələri sırasında

Burada ilk olaraq Azərbaycanın üçüncü peykini - “Azerspace-2”ni kosmik orbitə buraxması yada düşür. Bu hadisə 2018-ci il sentyabrın 26-da baş verib. “Azerspace-2” telekommunikasiya peyki Fransa Qvianasında yerləşən kosmodromdan - Qviana Kosmik Mərkəzindən uğurla orbitə çıxarılıb. ABŞ-ın “Space Systems/Loral” (SSL) şirkəti tərəfindən yüksək etibarlı “SSL 1300” peyk platforması əsasında istehsal olunan “Azerspace-2” peyki Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrini əhatə edəcək. Bu peykin dəyəri 190 milyon ABŞ dollarıdır. Onun Azərbaycan iqtisadiyyatına 400 milyon ABŞ dolları gəlir gətirəcəyi proqnozlaşdırılır.

Burada əhəmiyyətli olan həm də Azərbaycanın bir kosmos ölkəsi kimi mövqeyini getdikcə möhkəmlətməsi və fəaliyyət dairəsini genişləndirməsidir. İndi Azərbaycan dünyanın böyük bir məkanını kosmosdan izləyə bilir. İnformasiya mübadiləsi və təhlükəsizlik baxımından bunun nə qədər böyük əhəmiyyət daşıdığını hər kəs bilir. Bununla yanaşı, Azərbaycan Cənubi Qafqazda kosmosda bu cür imkanları olan yeganə dövlətdir.

Əslində, Azərbaycan kosmosda əldə etdiyi nailiyyətlər qədər enerji-nəqliyyat, loqistika və sənaye obyektlərinin inşası istiqamətlərində də uğurlar qazanmış ölkədir. Bu baxımdan 2018-ci ildə TANAP qaz kəmərinin istifadəyə verilməsi ekspertlər tərəfindən tez-tez vurğulanır. Bu ilin iyun ayının 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirildi. TANAP-la Türkiyəyə 2019-cu ildə 2 milyard kubmetr, 2020-ci ildə 4 milyard kubmetr və 2021-ci ildə isə 6 milyard kubmetr Azərbaycan təbii qazı nəql ediləcək. Boru kəməri gələn ilin birinci yarısında TAP qaz boru kəmərinə birləşmək üçün hazır olacaq. Layihə üzrə kapital xərcləri 8 milyard dollardır. İndiyədək TANAP layihəsinə 5,7 milyard dollar xərclənib.

Bu rəqəmlər göstərir ki, TANAP iqtisadi baxımdan möhtəşəm layihədir. Bununla yanaşı, onun geosiyasi əhəmiyyəti də çox böyükdür. Çünki daha geniş bir proqramın - Cənub Qaz Dəhlizinin tərkib hissələrindən biridir. Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi mayın 29-da Səngəçal terminalında olub. Həmin gün Azərbaycan təbii qazı Cənub Qaz Dəhlizi sisteminə vuruldu. Avropa İttifaqı üçün prioritet enerji layihələrindən olan Cənub Qaz Dəhlizinin seqmentlərini “Şahdəniz-2”, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, TANAP və TAP layihələri təşkil edir. Bu boru kəmərləri zənciri Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz-2” yatağından hasil olunan təbii qazı Türkiyəyə və həmin ölkədən də Avropaya çatdıracaq. Uzunluğu 3 min 500 kilometr olan Cənub Qaz Dəhlizi vasitəsilə ilkin mərhələdə Türkiyəyə 6 milyard kubmetr, Avropaya isə 10 milyard kubmetr Azərbaycan qazının nəqli planlaşdırılır.

Qərb siyasi liderləri və ekspertlər vurğulayırlar ki, Cənub Qaz Dəhlizi Avropanın enerji xəritəsini ciddi surətdə dəyişdirəcək. Bu layihə yalnız regional deyil, həm də qlobal əhəmiyyətə malikdir. Bu kimi layihələrin reallaşdırılması üçün nəqliyyat-logistik xidmətin də böyük rolu vardır.

Həmin kontekstdə ilin mühüm hadisələri sırasına Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışını da daxil etmək olar. 2018-ci il mayın 14-də Bakının Qaradağ rayonunun Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışı oldu. Liman 117 hektar ərazini əhatə edir və 12 yanalma körpüsünə malikdir. Limanın yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min konteyner təşkil edir. Limanda Ro-Ro tipli gəmilər üçün iki körpü, yeddi körpüdən ibarət universal quru yük və konteyner terminalı, iki bərə körpüsü, həmçinin xidməti donanma gəmiləri üçün bir körpü tikilib. Bu liman Asiya-Avropa xəttində logistik xidmətin mühüm hissəsini təşkil edir. Onun “Bir Qurşaq, Bir Yol” proqramının reallaşmasında vacib rol oynayacağı haqqında yüksək səviyyədə fikirlər səslənir.

Logistik xidmətin inkişafı fonunda sənaye müəssisələrinin tikilməsi də çox əhəmiyyətli görünür. Çünki iqtisadi infrastrukturun yüksək inkişaf səviyyəsi ölkədə istehsal olunan məhsulların dünya bazarına çevik və keyfiyyətli çıxarılmasına birbaşa yardım göstərir. Bu baxımdan SOCAR-ın fəaliyyətinin iki məqamı 2018-ci ilin mühüm hadisələri sırasına daxil edilməlidir.

2018-ci ildə “SOCAR Polymer”in polipropilen zavodu açıldı. Bu, iyulun 18-də Prezident İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarellanın iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkının ərazisində baş verib. “SOCAR Polymer”in polipropilen zavodunda bazar araşdırmasına əsasən, 3 növdə - homopolimer, zərbəyə davamlı so-polimer, statistiki so-polimer polipropilen məhsulları istehsal olunur. Azərbaycanın neftkimya sənayesində dövlət-özəl sektor tərəfdaşlığı üzrə yaradılan ilk şirkət olan “SOCAR Polymer” zavodlarının fəaliyyəti Azərbaycanın qeyri-neft sektorunun ixrac gəlirlərini 19 faiz artıracaq.

Digər hadisə İzmirdə SOCAR-ın “Star” neft emalı zavodunun açılışının olmasıdır. Zavodun açılışı oktyabrın 19-da Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə baş tutub. SOCAR-ın 6,3 milyard dollar investisiyası hesabına tikilən “Star” zavodu Türkiyənin ilk Xüsusi Sənaye Zonası elan olunub. 2019-cu ildən etibarən tam gücü ilə işləyəcək zavodda ildə 5 milyon ton dizel yanacağı, 1,6 milyon ton nafta, 1,6 milyon ton təyyarə yanacağı, 1 milyon ton qarışıq ksilen/reformat, mayeləşdirilmiş neft-qazı (LPG), neft koksu və kükürd istehsal ediləcək, 10 milyon ton xam neft emal olunacaq.

Bütün bunlar 2018-ci ildə Azərbaycanın siyasi, geosiyasi, sosial, iqtisadi, enerji, logistika, hərbi və digər sahələrdə uğurlara imza atdığını təsdiqləyir. Bu siyahıya humanitar-mədəniyyət və hüquqi sferalarda atılan addımları da daxil etmək vacibdir. İlk növbədə Bakıda VI Beynəlxalq Humanitar Forumun keçirilməsini vurğulamaq gərəkdir. Forum 2018-ci il oktyabrın 25-26-da Bakıda təşkil edilib. “Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı” mövzusunda keçirilən Forumda 86 ölkə və 24 beynəlxalq təşkilatdan 581 nümayəndə iştirak edib. Bu formatı mütəxəssislər sivilizasiyalar, mədəniyyətlər və dinlər arasında real dialoq mexanizmi qismində çox səmərəli hesab edirlər.

Ötən il beynəlxalq miqyasda vacib hüquqi sənəd kimi qəbul edilən sazişin bağlanması baxımından da əhəmiyyətli olub. Biz, “Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya”nın imzalanmasını nəzərdə tuturuq. Bu hadisə 2018-ci il avqustun 12-də Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin başçılarının V zirvə toplantısında baş verdi. Toplantı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Rusiya Prezidenti Vladimir Putin, İran Prezidenti Həsən Ruhani və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov tərəfindən Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalandı. Həmin sənəd Xəzəryanı bölgədə hüququn təminatı və sabitliyin saxlanması aspektində ciddi rol oynayır. O, ölkələrin beynəlxalq hüquq normaları çərçivəsində fəaliyyət göstərmələrinə əsas verir.

Nəhayət, xarici siyasət sahəsində də 2018-ci ildə əhəmiyyətli proseslərin getdiyini ifadə etmək lazımdır. 2018-ci ilin iyul ayında Avropa İttifaqı ilə Azərbaycan arasında qəbul olunmuş “Tərəfdaşlıq prioritetləri” sənədində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı ilə bağlı Avropa İttifaqından Azərbaycana önəmli dəstək ifadə olunub. Bununla yanaşı, 2018-ci il dekabrın 12-də Avropa Parlamentinin qəbul etdiyi “Vahid Xarici və Təhlükəsizlik Siyasətinin həyata keçirilməsi üzrə illik plan” adlı qətnamədə Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələri, o cümlədən Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü dəstəkləməsi bir daha təsdiqlənib. Eyni zamanda, 2018-ci il iyulun 11-12-də Brüsseldə keçirilmiş NATO zirvə görüşünün yekun bəyannaməsində alyans üzvləri Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə davamlı dəstək ifadə edib və regiondakı mövcud münaqişələrin məhz bu prinsiplər əsasında həll olunması xeyrinə çıxışlar ediblər.

Yuxarıda vurğulanan bütün hadisələr yekun halında Azərbaycan üçün 2018-ci ilin uğurlu olduğunu göstərir. Müstəqil dövlət quruculuğu istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə çox uğurlu siyasət həyata keçirilir və 2019-cu ildə bu prosesin davam edəcəyini proqnozlaşdırmaq olar.

***Newtimes.az***

# Məktəbdaxili qiymətləndirmə qaydalarında dəyişikliklər edilib

*Dünən Təhsil Nazirliyində "Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması Qaydası"nın qəbulu ilə bağlı mətbuat konfransı keçirilib. Nazirliyin şöbə müdiri Emin Əmrullayev məktəbdaxili qiymətləndirmə qaydalarında dəyişiklikləri zəruri edən səbəbləri ətraflı izah edib.*




Bildirilib ki, yeni qaydalarda nəzərdə tutulan əsas dəyişikliklərdən biri summativ qiymətləndirmə ilə bağlıdır. Qaydalara əsasən, summativ qiymətləndirmələrin sayı azaldılıb. Böyük Summativ Qiymətləndirmə (BSQ) təhsil səviyyələrinin sonunda, yəni IV, IX və XI siniflərdə bütün fənlərdən, V, VI, VII, VIII və X siniflərdə isə yalnız buraxılış imtahanları keçiriləcək fənlər üzrə aparılacaq. Təhsil səviyyələrinin sonunda Böyük Summativ Qiymətləndirmənin keçirilməsinin əsas məqsədi bütün fənlərdən təhsilalanların nailiyyətlərinin ölçülməsi, aralıq siniflərdəki BSQ-lərin əsas məqsədi isə buraxılış imtahanlarına mükəmməl hazırlığın təmin edilməsidir.

Qaydalarda edilən ikinci dəyişiklik ibtidai siniflərlə bağlıdır. Belə ki, ibtidai sinif şagirdlərinin yaş xüsusiyyətləri nəzərə alınaraq, I siniflərdə summativ qiymətləndirmə aparılmayacaq, II, III siniflərdə yalnız Kiçik Summativ Qiymətləndirmə (KSQ) olacaq.

Summativ qiymətləndirmə 100 ballıq şkala ilə aparılacaq, yalnız yekunda 2, 3, 4 və 5 qiymətlərinə çevrilərək sinif jurnallarına, "Məktəbli kitabçası"na yazılacaq. Başqa sözlə, qaydalara əsasən, bütün hesablamalar ballar üzərindən aparılacaq, yalnız son anda həmin balların qiymət qarşılığı da müəyyənləşəcək. KSQ üçün 1 dərs saatı, BSQ üçün isə yaş xüsusiyyəti və fənnin özünəməxsusluğu nəzərə alınaraq, 45-90 dəqiqəyə kimi vaxt nəzərdə tutulur. Yarım il ərzində fənn üzrə 3-dən 6-dək KSQ keçirilə bilər.

Dəyişikliklərdən biri də tədris ilində keçiriləcək summativ qiymətləndirmələrin tarixinin şagirdlərə əvvəlcədən elan edilməsidir. Bu, təhsil iştirakçısı kimi şagirdlərə verilən önəmin göstəricisi olmaqla yanaşı, onların fəaliyyətlərinin planlaşdırılması baxımından da faydalıdır.

Digər dəyişiklik isə lisey, gimnaziya və təmayülləşmə tətbiq edilən siniflərdə əlavə fənlər üzrə BSQ-lərin keçirilməsidir. Ümumtəhsil məktəblərinin, lisey və gimnaziyaların, təmayül siniflərinin özünəməxsusluğu qaydalarda nəzərə alınıb. Məsələn, beynəlxalq akkreditasiyadan keçmiş proqramların (International Baccalaureate Diploma Programme, A level və s.) tətbiq edildiyi ümumi təhsil müəssisələrində fərdi qiymətləndirmə qaydalarından istifadəyə icazə verilir. Yeni qaydalar Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi və dərc olunduğu gündən (2018-ci il dekabrın 29-dan) qüvvədədir və cari tədris ilinin II yarımilindən tətbiq olunur.

# Leonid Kalaşnikov: "2019-cu ildə Azərbaycan xalqının daha da firavanlaşmasını və ən ağrılı problemlərin həll olunmasını arzu edirəm"

***RF Dövlət Dumasının MDB Məsələləri üzrə Komitəsinin sədri Leonid Kalaşnikov "Moskva-Baku" informasiya portalına müsahibəsində Rusiya-Azərbaycan parlamentlərarası əməkdaşlığı barədə danışıb.***

X X X



2018-ci il Rusiya-Azərbaycan münasibətləri üçün çox fəal olub. Ən yüksək səviyyəli qarşılıqlı səfərlər baş tutub.

Bu il beş Xəzəryanı dövlətin prezidentləri arasında konstruktiv uğurlu danışıqlarla əlamətdar olub. Həmin danışıqlar nəticəsində Xəzər dənizinin hüquqi statusu barədə Konvensiya imzalanıb. Müzakirələri 20 ildən çox davam edən Konvensiya artıq Dövlət Dumasına daxil olub və yaxın vaxtlarda ratifikasiya ediləcək.

Parlament forumları məkanında Rusiya Federasiyası Dövlət Dumasının və Azərbaycan Milli Məclisinin rəhbərləri arasında dəfələrlə görüşlər keçirilib, ilin əvvəlində Azərbaycan Parlamentinin spikeri Oqtay Əsədov Moskvaya, RF Dövlət Dumasının sədri Vyaçeslav Volodin Bakıya səfər edib, Azərbaycan Prezidenti İlham Əliyevlə görüşüb. 2018-ci ildə bizim parlamentarilər Azərbaycan parlamentinin 100 illiyinə həsr edilmiş tədbirlərdə və Bakı Humanitar Forumunda iştirak ediblər.

Rusiya ilə Azərbaycan arasında yüksək səviyyəli parlamentlərarası komissiya yaradılması barədə qərar da mühüm hadisə oldu. Rusiya üçün vacib dövlətlərlə bu cür geniş tərkibli komissiyalar yaradılmasını qərara alarkən məqsəd bu idi ki, sadəcə söhbət etməklə və ya "parlament turizmi" ilə məşğul olmaqla kifayətlənməyib, həqiqətən ciddi konkret məsələləri həll edək. Bu məqsədlə həmin komissiyaların tərkibinə parlamentin bütün aparıcı profil komitələrinin, məsələn Nəqliyyat və tikinti komitəsinin, İqtisadi siyasət, sənaye, innovasiyalı inkişaf və sahibkarlıq komitəsinin, habelə Energetika komitəsinin rəhbərlərini daxil etmişik. Bu, parlamentlər səviyyəsində ikitərəfli əməkdaşlığın genişləndirilməsi üzərində işin sürətinin və səmərəsinin artırılmasını təmin etməyə imkan verəcək.

Komissiyaya həm Rusiya, həm də Azərbaycan tərəfindən parlament sədrlərinin müavinləri başçılıq edir. Hazırda Rusiya 15 ölkə ilə bu cür yüksəksəviyyəli parlamentlərarası komissiya yaradıb.

2018-ci ildə humanitar və mədəni əməkdaşlıq istiqamətində də fəal tədbirlər görmüşük. Məsələn, Dövlət Dumasında bizim parlamentin tarixində ilk dəfə konkret ölkəyə həsr edilmiş milli sərgi təşkil edilib. Məhz Azərbaycanla birgə keçirilən bu sərgi böyük maraq doğurdu. Bütün ölkəmizi təmsil edən 450 rusiyalı deputat Azərbaycan Respublikanın son illərdə necə dəyişməsini və turistlər üçün cəlbedici olmasını gördülər. Çoxları belə bir faktı özləri üçün "kəşf etdi" ki, adətən yalnız neft və meyvə ilə assosiasiya doğuran Azərbaycanda bu gün xizək idmanı ilə məşğul olmaq imkanları Alp dağları ilə müqayisədə heç də pis deyil. Azərbaycan istər qonaqların qəbul edilməsi səviyyəsinə, istərsə də təbiətin gözəlliyinə, dağ yamaclarının idman məşğələləri üçün münasibliyinə, habelə mehmanxanaların keyfiyyətinə görə həqiqətən çox cəlbedicidir. Bu faktlar çoxları üçün əsl kəşf olub. Təsəvvür edin ki, bu gün Azərbaycanın belə potensiala malik olması barədə Rusiya əhalisinin məlumatlanma səviyyəsi çox aşağıdır. Biz Azərbaycanın belə imkanları barədə rusiyalıları məlumatlandırmalı, Turizm Nazirliyinin diqqətini bu məsələyə cəlb etməliyik. Biz Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdə onunla da bu mövzuda söhbət etdik. Şəxsən mən ona dedim: Türkiyəyə fikir verin, Türkiyə kurortları Rusiyada reklam edilir. Mənə belə gəlir ki, dost Azərbaycan Respublikasının kurortları barədə də Rusiyada, hətta daha geniş miqyasda belə tədbirlər görmək olar.

Məsələn, mənim bir siyasətçi dostum bu il Azərbaycana - Şahdağda xizək sürməyə gedəcək. Azərbaycanda istirahət etməyə gedən belə insanlar çoxdur.

Bütövlükdə bizim ikitərəfli münasibətlər barədə qeyd etmək istəyirəm ki, heç nə, hətta Cənub Qaz Dəhlizinin işə salınması da bu münasibətlərə xələl gətirə bilməz. Fikir verin, bəzi qonşularımız "Şimal axını-2" layihəsinin əleyhinə çıxış edir. Biz isə bütün bunlara rəğmən Azərbaycanla dostluğu və əməkdaşlığı davam etdiririk. Düzdür, Azərbaycan tərəfindən rəqabət bizi də sevindirmir, lakin biz başa düşürük ki, rəqabət öz yerində, amma bu səbəbdən iki dövlətin dostluğu zəifləyə bilməz. Rusiyanın bu cür qaz siyasəti bəzi işbazların, oliqarxların xoşuna gəlməyə bilər. Lakin Putinin, Rusiya dövlətinin Azərbaycana münasibətdə siyasəti dostcasına siyasətdir, biz bunu heç vaxt gizlətmirik və başqalarına da başa salırıq.

Mənim fikrimcə, həm Rusiyanın, həm də Azərbaycanın xoşbəxtliyindən, bizim bu cür münasibətlərimizin əsası ondan ibarətdir ki, hər iki ölkənin prezidentləri bu dostluğun, bu cür qarşılıqlı münasibətlərin qədrini bilir. Bu, çox vacibdir və biz əlimizdən gələni etməliyik ki, bundan sonra da belə olsun, heç kəs bunu şübhə altına almasın. Əks halda bu, Rusiyanın siyasi mənafelərinə zidd olar. Azərbaycanla parlamentlərarası əməkdaşlığın perspektivləri məsələsinə gəldikcə, qeyd etməliyəm ki, hazırda, 2019-cu ilin lap əvvəlində Dövlət Dumasında birgə konfrans keçiriləcək.

2019-cu ildə Rusiya və Azərbaycan parlamentlərinin sədrlərinin qarşılıqlı səfərləri nəzərdə tutulur. Bu səfərlərin konkret müddətini demək hələ çətindir, lakin belə səfərlər planlaşdırılıb. Güman edirəm ki, görüşdə yüksəksəviyyəli parlamentlərarası komissiya yaradılması barədə müqavilə imzalanacaq. Rusiya tərəfindən həmin komissiya barədə sənədlər hazırlanıb, həm Xarici İşlər Nazirliyində, həm də Duma Şurasında razılaşdırılıb. Azərbaycanda son məslələhətləşmələr aparılır. Ümumiyyətlə, bu məsələ ilə əlaqədar xırda ştrixlər qalıb. Bizim spikerlər qarşılıqlı ikitərəfli səfərlərdən əlavə bir sıra ümumi məkanlarda, o cümlədən Qazaxıstanda Avrasiya dövlətləri spikerlərinin parlament sammitində görüşəcəklər.

Biz beş Xəzəryanı dövlətin spikerlərinin Xəzər regionunun inkişafı problemlərinə həsr edilmiş konfransını keçirmək imkanını da araşdırırıq. Bu məsələ bütün 5 dövlətin spikerləri ilə müzakirə ediləcək. Lakin Azərbaycan və Rusiya, bizim spiker Volodin belə konfransın keçirilməsinə tərəfdardır. Həmin tədbiri Xəzər sahilində 5 ölkənin şəhərlərindən birində keçirmək olar.

Sonda mən Azərbaycan xalqını Yeni il münasibətilə təbrik etmək istərdim. Azərbaycan xalqına daha artıq firavanlıq, respublikanı narahat edən ən ağrılı problemlərin həmısının həll olunmasını arzu edirəm. Hesab edirəm ki, ən ağrılı problemləri yalnız qonşu ölkələr, bizim prezidentlər danışıqlar masası arxasında həll edə bilər. Lakin təəssüf ki, bu məsələyə üçüncü qüvvənin, bizim ölkələrimizdən bir neçə min kilometr uzaqda yerləşən qüvvənin müdaxilə etməsi göz qabağındadır. O, problemdən öz məqsədləri üçün istifadə edir. Mən, o cümlədən bu səbəbdən, ATƏT-in Minsk qrupuna şübhə ilə yanaşıram. 30 ilə yaxın müddət ərzində Dağlıq Qarabağ münaqişəsi problemi həll edilməyib. Mən əminəm ki, Azərbaycanın inkişafına, onun həyatına kölgə salan məsələlər həll ediləcək. Əsas odur ki, Azərbaycan Respublikası düzgün istiqamətdə irəliləyir.

Mən həm ölkənizin vətəndaşlarına, həm də onun rəhbərliyinə uğurlar arzulamaq istərdim. Mənim üçün çox xoşdur ki, Azərbaycan rus dilinin inkişafı üçün əlverişli şəraiti qoruyub saxlayır, rusdilli məktəbləri saxlayır və yenilərini açır. Mən onu həmişə nümunə gətirirəm.Azərbaycanın Birinci vitseprezidenti Mehriban xanım Əliyevanın və Prezident İlham Əliyevin fəaliyyətinə, onların respublikada rus dilinin və rus məktəblərinin qorunub saxlanması məsələsinə necə yanaşmalarına xüsusi hörmət bəsləyirəm. Mən Azərbaycan vətəndaşlarına, o cümlədən Rusiyada yaşayan azərbaycanlılara uğurlar, sevgi, dostluq, xoşbəxtlik arzu edirəm. Ümidvaram ki, mənim bütün arzularım və azərbaycanlıların Yeni il axşamında ürəklərində tutduğu niyyətlər həyata keçəcək!

# Əhaliyə yüksək keyfiyyətli tibbi xidmət göstərməyə münbit şərait yaradılıb

*Ölkə vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsi Azərbaycanda dövlət siyasətinin başlıca istiqamətlərindəndir. İqtisadiyyatda həyata keçirilən köklü dəyişikliklər makroiqtisadi sabitliyi təmin etməklə bərabər, əhalinin sosial vəziyyətlərini daha da yaxşılaşdırmaq üçün möhkəm zəmin yaradıb. Azərbaycanda həyata keçirilən sosial siyasət nəticəsində, müşahidə olunan uğurlu inkişaf, həyatımızın hər bir sahəsini əhatə etdiyi kimi, bu inkişaf əhalinin sağlamlığının qorunması kimi vacib bir sahədən də yan keçməyib. Səhiyyədə aparılan uğurlu islahatlar əhalinin sağlamlığının təminatına və bu sahənin tam şəkildə dünya standartları səviyyəsində qurulmasına istiqamətlənib.*



Son illər Azərbaycan Prezidenti İlham Əliyevin səhiyyənin inkişafı ilə bağlı həyata keçirdiyi məqsədyönlü siyasət və verdiyi sərəncamlar bu sahənin keyfiyyət və kəmiyyət göstəriciləri ilə zənginləşməsinə səbəb olub. Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması bu istiqamətdə aparılan siyasətin əsas prioritetləridir. Ölkəmizdə 600-dən çox xəstəxana, tibb obyektinin əsaslı təmir olunaraq, yenidən tikilməsi fikirlərimizi əsaslandırır. Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş siyasətinin və möhkəm iradəsinin məntiqi nəticəsi olaraq, hətta bütün dünya üçün çətin olan son illərdə də, ölkəmizin inkişafı davam etdirilib. Azərbaycanda çoxsaylı səhiyyə müəssisələrinin tikintisi, əsaslı təmiri və müasir avadanlıqlarla təchiz edilməsi, yola saldığımız 2018-ci ildə də, həyata keçirildi. Əgər 2017-cı ildə Sabirabad, Masallı, Neftçala rayon mərkəzi xəstəxanaları, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Bakıda “Ürək Mərkəzi” əhalinin istifadəsinə verilmişdisə, yola saldığımız 2018-ci ildə isə Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu, Respublika Narkoloji Mərkəzi, Naftalan və Quba rayon mərkəzi xəstəxanaları əsaslı təmir-tikinti işlərindən sonra ən müasir tibbi avadanlıqlarla təchiz edilərək, əhalinin istifadəsinə verildi. Bununla yanaşı, Buzovnada yerləşən Tibbi Reabilitasiya Mərkəzi, Qobustan, Qazax, Şəmkir, Goranboy rayon mərkəzi xəstəxanalarında təmir-tikinti işləri hazırda başa çatmış və cari ilin ilk aylarında açılışa hazırlanır.

### TALASSEMİYA MƏRKƏZİNDƏ İL ƏRZİNDƏ 12 SÜMÜK İLİYİ TRANSPLANTASİYASI APARILIB

Maddi-texniki bazanın inkişaf etdirilməsi, kadrların ixtisas səviyyəsinin yüksəlməsi hesabına bu gün ölkəmizdə bir sıra ağır xəstəliklər müalicə olunur, mürəkkəb əməliyyatlar, o cümlədən, qaraciyər transplantasiyası, süni oynaq və açıq ürək əməliyyatları aparılır. Təkcə bir il ərizində 22 nəfərə dövlət hesabına böyrək köçürülüb, 114 xəstəyə endoprotezləşmə əməliyyatı aparılıb. Son illərdə Respublika Talassemiya Mərkəzində irsi qan xəstəliklərinin radikal müalicə üsulu olan sümük iliyinin transplantasiyası əməliyyatı uğurla həyata keçirilir. İl ərzində 12 sümük iliyi transplantasiyası aparılıb, onlardan 2 nəfər kəskin leykoz, digər 10 nəfər isə böyük beta-talassemiya xəstəsi olub. Statistik rəqəmlərə nəzər salsaq, görərik ki, ümumilikdə, 2018-ci ildə 280 mindən çox xəstəyə ən müxtəlif cərrahi əməliyyatlar həyata keçirilib. Maliyyə baxımından çox baha başa gələn yuxarıda adları sadalanan belə əməliyyatların dövlət hesabına icra olunması dövlətimizin əhalinin sağlamlığına verdiyi diqqət və qayğının bariz nümunəsidir.

### 2018-Cİ İLDƏ BEYNƏLXALQ DİRİDOĞULMA MEYARLARI NƏZƏRƏ ALINMAQLA BU RƏQƏM 11,0 PROMİLLİ TƏŞKİL EDİB

Əhaliyə göstərilən tibbi xidmətin genişləndirilməsində və keyfiyyətinin artırılmasında səhiyyənin ayrı-ayrı sahələri üzrə qəbul edilmiş dövlət proqramlarının xüsusi rolu olmuşdur. Belə ki, “Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı” çərçivəsində, mütəmadi olaraq, ana və uşaqlara xidmət göstərən tibb müəssisələrinin, xüsusən, neonatoloji reanimasion şöbələrin maddi-texniki bazası ilbəil gücləndirilir, dərman preparatları və tibbi texnika ilə təminatı yaxşılaşdırılır. Respublikamızda həyata keçirilən bu tədbirlərin nəticəsində, ana və uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamika əldə edilmişdir. Əgər 2014-cü ildə respublikada körpə ölümü göstəricisi 10,2 promilli idisə, 2018-ci ildə beynəlxalq diridoğulma meyarları nəzərə alınmaqla, bu rəqəm 11,0 promilli təşkil edir. Bu günə qədər 1000 qram və az çəki ilə doğulmuş 353 körpədən 126-nı xilas etmək mümkün olmuşdur. 2017-cü ildə 21 ana ölümü qeydə alındığı halda, yola saldığımız ildə bu rəqəm 17 olmuşdur. Qeyd olunan statistik rəqəmlər və statistik göstərişlər səhiyyə sahəsinin istənilən bölməsində xeyli irəliləyişlərin əldə olunduğunu sübut edir.

Ötən il dövlət başçısının Sərəncamı ilə təsdiqlənmiş “Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın əsas məqsədi dağınıq skleroz xəstəliyinin profilaktikasının və müalicəsinin təkmilləşdirilməsi yolu ilə xəstələnmə, əlillik və ölüm hallarının azaldılmasından ibarətdir. Dağınıq skleroz xəstəliyi ilə mübarizə, bir çox ölkələrdə olduğu kimi, respublikamızda da səhiyyənin aktual problemlərindən biridir. “Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərə qarşı mübarizəyə dair 2015-2020-ci illər üzrə Strategiya”sı “2016-2020-ci illər üçün şəkərli diabet üzrə Dövlət Proqramı”, “Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı” və s. insan həyatı və sağlamlığına zərbə vura biləcək halların qarşısının alınmasına yönəlib. Bütün bunlar Azərbaycan səhiyyəsinin müasir dövrümüzdə bütün xüsusiyyətlərinə görə, özünün yeni inkişaf mərhələsini yaşamasının, ölkəmizin iqtisadi gücünün və siyasi sabitliyinin təzahürüdür. Dağınıq skleroz xəstəliyi ilə mübarizə, bir çox ölkələrdə olduğu kimi, respublikamızda da səhiyyənin aktual problemlərindən biridir. Azərbaycanda belə xəstələrin sayı 1000 nəfərə yaxındır və xəstələnmə halları ilbəil artmağa meyillidir. İl ərzində hər 100 000 nəfər əhalidə 3-4 xəstələnmə hadisəsi qeydə alınır. Dağınıq skleroz xəstəliyinin diaqnostikasının və müalicəsinin yaxşılaşdırılması, ağırlaşmalarının qarşısının alınması, dağınıq skleroz xəstəliyi ilə bağlı əlilliyin və ölüm hallarının azaldılması diqqətdə saxlanılır.

Bildiyimiz kimi, “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”nin “Tədbirlər planı”nda “İnteqrasiya edilmiş fasiləsiz elektron səhiyyə infrastrukturunun yaradılması” nəzərdə tutulub. Belə ki, artıq “Vətəndaşların Elektron Sağlamlıq Kartı Sistemi”, “Kadrların Avtomatlaşdırılmış Uçot Sistemi”, “Vahid Qan Bankı Sistemi”, “Yoluxucu Xəstəliklərin Elektron Müşahidə Sistemi”, “Tibbi Müayinə Kartı Sistemi” və s. elektron xidməti ölkə üzrə tətbiq edilir. İndiyədək informasiya sistemlərinin tətbiqi sahəsində 40 elektron xidmət istifadəyə verilib. Mühüm məqamlardan biri də odur ki, bu vahid sistemin digər qurumların informasiya sistemlərinə və “Elektron Hökumət” portalına inteqrasiyası da təmin edilib.

Bu gün Azərbaycanda elə bir rayon, elə bir bölgə yoxdur ki, orada yeni xəstəxanalar, diaqnostika mərkəzləri açılmasın, müasir avadanlıqla təchiz olunmasın və insanların istifadəsinə verilməsin. Bütün bunlar Cənab Prezidentin səhiyyəyə qayğısının göstəricisidir.

**Nəzakət ƏLƏDDİNQIZI**

## 2018-ci ildə İçərişəhəri 200 mindən çox insan ziyarət edib

Ötən il Qız qalası və Şirvanşahlar Sarayı Kompleksini 250 mindən çox turist ziyarət edib. “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən SİA bildirilib ki, bu iki qədim abidə İçərişəhərin ən çox maraq duyulan və ziyarət edilən məkanlarından olub. Ötən il ərzində Şirvanşahlar Sarayı Kompleksini ziyarət edən 100 mininci ziyarətçi idarə tərəfindən müəyyən edilərək xatirə hədiyyələri və xüsusi sertifikatla təltif edilib. Bu il bu ənənənin Qız Qalasının ziyarətçiləri üçün də tətbiq edilməsi planlaşdırılır. Azərbaycan xalqının maddi-mədəni irsinin canlı təqdimatı, onun mənəvi aləminin həqiqi təzahürü məhz bu məkan daxilində vəhdət təşkil edir. İçərişəhəri ziyarət edənlərin sayı günü-gündən artır və Qoruq xalqımızın milli-mədəni irsi və tariximizlə tanış olmaq üçün ən gözəl imkanlar yaradır.

## Təhsil Nazirliyi: 3 min 269 sənədin icrası başa çatdırılıb

Ötən il Təhsil Nazirliyinə xarici ali təhsil ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) məqsədilə 3 min 366 müraciət daxil olub. Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, əvvəlki illərdən icrası başa çatdırılmayan müraciətlər də daxil olmaqla, keçən il ümumilikdə 3 min 269 sənədin icrası yekunlaşdırılıb. Onlardan 2 min 365 müraciət müsbət cavablandırılıb.

## Bu günədək Bakı-Gəncə-Bakı sürət qatarı ilə 309 sərnişin daşınıb

Bu günədək Bakı-Gəncə-Bakı sürət qatarı ilə 309 sərnişin daşınıb. “Azərbaycan Dəmir Yolları” QSC-nin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, dekabrın 30-dan sərnişin daşınmasına başlayan Bakı-Gəncə-Bakı qatarı ilə bu vaxtadək 309 sərnişin daşınıb.



Qeyd edək ki, Bakı-Gəncə-Bakı istiqamətində sərnişinlərin rahat gediş-gəlişini təmin etmək məqsədilə günaşırı, Bakıdan dekabrın 30-dan etibarən ayın cüt günlərində, Gəncədən isə dekabrın 31-dən etibarən ayın tək günlərində “Stadler Rail Group” şirkətinin istehsalı olan KISS markalı ikimərtəbəli 702/701 nömrəli Bakı-Gəncə-Bakı sürət qatarı fəaliyyət göstərir.

# Yaponiyanın Fuci telekanalında Azərbaycan haqqında veriliş yayımlanıb

***Yeni ilin ilk günlərində Yaponiyanın populyar Fuci telekanalı Azərbaycan haqqında veriliş yayımlayıb. AZƏRTAC xəbər verir ki, "Dünya" adlı verilişdə Azərbaycanın coğrafi mövqeyi, əhalisi, tarixi və mədəniyyəti haqqında geniş məlumat verilib. Azərbaycanın Yaponiyadan təyyarə ilə 15 saatlıq məsafədə yerləşdiyini qeyd edən aparıcı ölkəmizin çox əlverişli coğrafi mövqeyə sahib olduğunu bildirib. Müstəqilliyini 1991-ci ildə bərpa edən Azərbaycanın qısa zaman kəsiyində əldə etdiyi uğurlar diqqətə çatdırılıb.***




Verilişdə Bakı şəhərindəki "Alov qüllələri", Heydər Əliyev Mərkəzi, SOCAR-ın binası, Bakı Kristal Zalı və digər möhtəşəm tikililərin müasir dizaynı barədə söhbət açılıb. "Alov qüllələri"nin şəhərin rəmzi olduğu qeyd edilib.

Telekanalın Azərbaycan Dövlət Neft və Sənaye Universitetində və Bakı Ali Neft Məktəbində olan çəkiliş qrupu ölkəmizdə yerləşən neft və qaz yataqları barədə də tamaşaçıları məlumatlandırıb. Eyni zamanda, tamaşaçılara Neft Daşları və Bakı-Tbilisi-Ceyhan neft boru kəməri barədə məlumatlar təqdim edilib. Bundan başqa, Azərbaycan ərazisindəki faydalı qazıntılardan, Naftalan Sağlamlıq Mərkəzi və palçıq vulkanlarından bəhs olunub. İçərişəhərdə və Nizami küçəsində aparılan çəkilişlər zamanı şəhərin mərkəzində yerləşən bu iki yerin tikililəri ilə tarixi və müasir Azərbaycanı əks etdirdiyi vurğulanıb. Yapon izləyicilər ölkəmizin müasirliyi ilə diqqəti cəlb edən turizm potensialı və mövcud infrastrukturu barədə də ətraflı məlumatlandırılıb.

Tamaşaçılara ölkəmizin rəmzlərindən biri hesab edilən, dünyaca məşhur Azərbaycan xalçaları barədə də geniş məlumat verilib. Veriliş boyunca azərbaycanlıların çox istiqanlı, mehriban, qonaqpərvər və əməksevər bir xalq olduğu qeyd edilib. Sonda yapon tamaşaçılara bu gözəl ölkəyə səyahət etmək tövsiyə olunub.

# YAP Tərtər rayon təşkilatının şura iclası keçirilib




***Dünən Yeni Azərbaycan Partiyası Tərtər rayon təşkilatının 2018-ci ilin fəaliyyətinin yekunlarına həsr olunan şura iclası keçirilib. Tədbiri giriş sözü ilə açan YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov əvvəlcə ötən ilin 11 aprel tarixində keçirilən prezident seçkilərində dövlət başçısı, YAP-ın Sədri İlham Əliyevin parlaq qələbəsindən bəhs edib. Bildirib ki, seçkinin nəticələri ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin və həyata keçirilən siyasətin xalq tərəfindən dəstəklənməsinin bariz nümunəsidir.***

Daha sonra R.Şabanov hesabat dövrü ərazində rayon təşkilatı tərəfindən keçirilən tədbirlər və reallaşdırılan layihələr haqqında ətraflı məlumat verib. Rayon təşkilatının müvafiq Fəaliyyət Planına uyğun olaraq, hesabat dövründə müxtəlif tarixi günlərə, əlamətdar hadisələrə həsr olunmuş tədbirlər keçirildiyini qeyd edib. Eyni zamanda, çıxışında R.Şabanov onu da bildirib ki, aparılmış siyasi iş və ideoloji təbliğat nəticəsində, ərazi ilk partiya təşkilatlarının və üzvlərimizin sayı da artırılıb: "Belə ki, hazırda 83 ərazi ilk partiya təşkilatında 6351 nəfər üzv vardır ki, onların da 3415 nəfərini qadınlar, 1459 nəfərini gənclər təşkil edir. 2018-ci ildə ayrı-ayrı sahələrdə çalışan insanların nümayəndələri Heydər Əliyev ideyalarına sadiq olan 251 nəfər YAP sıralarına qəbul olunub. Sevindirici haldır ki, yeni qəbul edilmiş partiya üzvlərinin böyük əksəriyyəti də gənclərdir".

Tədbirdə YAP Tərtər rayon təşkilatı qadınlar şurasının sədri Əli Əliyev, rayon təşkilatı gənclər birliyinin sədri Emin Pənahov çıxış edərək görülən işlər və keçirilən tədbirlər barədə məlumat veriblər.

Hesabat ətrafında çıxış edən şura üzvlərindən Gülarə Əkbərova, Surxay Mirzəyev, Xeyri Həcər və başqaları qeyd ediblər ki, YAP Tərtər rayon təşkilatı, eləcə də, qadınlar şurası və gənclər birliyi öz sıralarını möhkəmləndirməklə rayonun ictimai-siyasi həyatında fəal iştirak edirlər. Vurğulanıb ki, respublikada qadınların və gənclərin qərar qəbuletmədə və hakimiyyət orqanlarında iştirakı getdikcə artmaqdadır. Onlar hər işdə olduğu kimi, qarşıdan gələn bələdiyyə seçkilərində də ortaya qətiyyətli mövqe qoyacaq və ölkəmizin gələcəyi naminə əhəmiyyətli qərarlar verəcəklər.

Tədbir iştirakçıları yekdilliklə YAP Tərtər rayon təşkilatının 2018-ci ilin hesabatını qənaətbəxş hesab ediblər. Sonda rayon təşkilatının 2019-cu ilə dair İş və Tədbirlər Planlarının da təsdiq olunması barədə qərar qəbul edilib.

**RƏFİQƏ HÜSEYNOVA**

# Polşanın "Exo" qəzeti BSU-dan yazdı


OWIE PANIE PROFESOR U REKTOR NURLANY ALIYEVEJ

Po zakończonych zajęciach w Centrum Kultury i Języka Polskiego BSU

Przed budynkiem BSU

Ze studentami

EUROPEJSKI DZIEŃ JĘZYKÓW

ZAPRASZAMY NA

VI MIĘDZYNARODOWY KONGRES AZJATYCKI

Ölkə Prezidentinin göstərişlərini rəhbər tutan Bakı Slavyan Universiteti hazırda Şərqi Avropanın əksər ölkələrində və keçmiş MDB məkanında Azərbaycan dilinin, mədəniyyətinin, elminin, təhsilinin və iqtisadi yüksəlişinin təbliği sahəsində əvəzsiz xidmətlər göstərməkdədir. Dilimizin xarici ölkələrin ali məktəblərində BSU tərəfindən yaradılmış dil kurslarında və tədris-mədəniyyət mərkəzlərində əcnəbi tələbələrə öyrədilməsi, artıq ənənəyə çevrilmişdir. Həmin mərkəzlərdə, eyni zamanda, Azərbaycanın nümunə olaraq dünyaya təqdim etdiyi iqtisadi və siyasi modellər, respublikamızın sürətli inkişafının və regionda aparıcı dövlət olmasının səbəbləri, perspektivləri araşdırılır, gənc alimlərin tədqiqat obyektinə çevrilir.

Bu günlərdə BSU-nun əməkdaşları xaricdən daha xoş bir xəbər alıblar. Polşanın məşhur nəşriyyat evinin sahibi, professor Adam Marşalekin təsisçi olduğu "EXO" qəzeti BSU, onun rektoru, professor Nurlana Əliyeva, universitetdəki tədris prosesi və s. haqqında geniş yazı dərc edib. Yazıda BSU-nun 2000-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Mirzə Fətəli Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunun bazasında yaradılması və onun keçdiyi tarixi yol barədə ətraflı məlumat verilib. Müəllif hazırda universitetdə beş fakültənin və on bir mərkəzin, o cümlədən, Polşa Tədris Mədəniyyət Mərkəzinin fəaliyyət göstərdiyini qeyd edir. O, professor N.Əliyevanın universitetə rektor təyin edildiyi qısa müddət ərzində, BSU-da ciddi dəyişikliklərin baş verdiyini, universitetin xarici əlaqələrinin və maddi-texniki bazasının xeyli genişləndiyini bildirir.

Yazıda, həmçinin, polşalı professor Yoanna Marşalekin BSU-dakı fəaliyyətinə toxunulub. Qeyd edək ki, Yoanna Marşalek Polşa Siyasi Sistem üzrə Departamentinin müdiri, polyak siyasi elmləri üzrə illik kitabın baş redaktoru, Şərq tədqiqatlarının direktorudur. O, ötən il BSU-da müxtəlif mövzularda silsilə mühazirələr oxumuşdur. BSU-nun Avropanın ən yaxşı ali təhsil ocaqları ilə müqayisə oluna biləcəyini vurğulayan A.Marşalek yazıda Polşadan gəlmiş professor Danuta Pleçko ilə görüşlərinə də toxunub. Qəzetdə BSU-da təhsil alan gənclərin hazırladıqları ədəbi-bədii proqramlardan şəkillər və reportajlar da yer almışdır.

Adam Marşalek reportajında Bakıda azərbaycanlı tələbələrlə polyak dilində danışmaqdan məmnun olduğunu bildirib. Bakını dünyanın ən müasir şəhərlərindən biri kimi dəyərləndirən A.Marşalek xalqımızın tolerantlıq və multikultural dəyərlərlə tanındığını, dünyaya bir model kimi çıxdığını da vurğulamışdır. O, Avropanın özündə dini, irqi, etnik və mədəni problemlərin yaşandığı halda, Azərbaycanın hər yerində multikulturalizmin bərqərar olduğunu bildirir. Bakıda olarkən, tələbələrdən bir çoxunun etnik-mədəni mənsubiyyəti ilə maraqlandığını qeyd edən naşir yazır: "Onların arasında bir çox azlıqların nümayəndəsi var, amma görürəm ki, etnik-mədəni fərqlər tələbələr arasında, onların münasibətlərində heç bir problem yaratmır. Bu, həqiqətən, dünya üçün çox yaxşı örnək sayıla biləcək bir haldır".

**ZÜMRÜD**

# "Alimentando.info" xəbər portalı: Azərbaycan dünyada üçüncü ən böyük fındıq istehsalçısıdır




İtaliyanın "Alimentando.info" qida saytında "Azərbaycan dünyada üçüncü ən böyük fındıq istehsalçısıdır" sərlövhəli yazı yerləşdirilib. Yazıda Azərbaycanın fındıq istehsalı üzrə ABŞ-ı geridə qoyaraq Türkiyə və İtaliyadan sonra dünyada 3-cü yerə yüksəldiyi qeyd edilib. Yazıda bildirilir ki, 2017-ci ildə Azərbaycanda 18 min hektarda fındıq tingi əkilərək, fındıq bağlarının ümumi sahəsi 55 min hektara çatıb. Məqsəd bağların ümumi sahəsini 80 min hektara çatdırmaqdır.

Qeyd olunur ki, 2018-ci ilin məhsul yığımı ekspertlərə ümumi istehsal həcmini dəyərləndirməyə imkan verib. Belə ki, ötən il Azərbaycanda 70 min ton fındıq istehsal edilib ki, bu da 2017-ci ilin göstəricisindən 56 faiz (45500 ton) çoxdur. Onun böyük hissəsi xarici ölkələrə, xüsusən İtaliyaya ixrac edilib. İtaliya 2017-ci ildə Azərbaycandan 9 min ton fındıq alıb. Azərbaycan Avropa İttifaqının, eləcə də MDB-nin 25-dək ölkəsinə də fındıq məhsulları ixrac edib.

# Ötən il milli parkları 80 minə yaxın turist ziyarət edib

Ötən il Azərbaycanın milli parklarını 79 min 997 turist ziyarət edib. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda belə deyilir. Qeyd olunur ki, onlardan 72 min 519-u yerli, 7478-i isə xarici vətəndaş olub.

Qeyd edək ki, ölkəmizdə 10 milli park fəaliyyət göstərir. Milli parkları ziyarət etmək istəyənlər nazirliyin rəsmi internet saytının "xidmətlər" bölməsinə daxil olub onlayn şəkildə bilet ala bilərlər. Bununla yanaşı, milli parkların giriş məntəqələrindən də bilet əldə etmək mümkündür.

# 2019-cu il müxalifət üçün uğursuz il olacaq

## Partiya funksionerləri bədbin proqnozlar irəli sürürlər

***Gözlənildiyi kimi, 2018-ci il müxalifət üçün uğursuz illərdən biri oldu. Kütləvi qopmalarla yanaşı, funksionerlərarası qarşıdurmaların daha da gərginləşməsi müxalifət üçün böhran durumun ənənəvi xarakter daşıdığını göstərdi. Baxmayaraq ki, ilin sonunda İskəndər Həmidov, Pənah Hüseyn, Əvəz Zeynallı, Tural Abbaslı və digərləri dağınıq və pərakəndə halda olan müxalifətin birliyinə nail olmaq üçün "Müxalifətin zirvə toplantısı" deyilən toplantı keçirildi. Buraya AXCP, Müsavat, "REAL" və digər partiyaların qatılmaması toplantının nəticəsiz qalacağını göstərir. Söhbət etdiyimiz müsahiblərimiz də "zirvə" toplantısının heç bir nəticə verməyəcəyini, xaos və anarxiyanın davam edəcəyini bildirdilər.***

### "Yurddaş" partiyasının sədri Mais Səfərli: "Maraqlar toqquşduqca, müxalif birliklər dağılır"

- Müxalifətin bir araya gələ bilməməsinin başlıca səbəbi partiya sədrlərinin yarıtmaz siyasət aparması və hər birinin özünü müxalifətin aparıcı lideri kimi görməsidir. Bu cür mənasız iddialar müxalifəti uçuruma aparır. Demək olar ki, iddialar səbəbindən, bu gün dağıdıcı müxalifət düşərgəsində heç kəs qalmayıb. Yəni orada partiya sədrlərindən və onların yaxın çevrələrindən başqa adamlar görmək mümkün deyil. Siyasi partiyalar anlamına fikir versək, düşərgədə, demək olar ki, o partiyalar yoxdur.



Bunun da səbəbi özlərinin işlərini düzgün qura bilməmələridir. 1990-cı illərin əvvəllərində formalaşmış o partiyalar, artıq uzun illərdir ki, müxalifətdədirlər və ölkədə keçirilən bütün seçkiləri uduza-uduza gəliblər. Bu illər ərzində radikal müxalifət partiyalarının peşəsi iqtidarın gördüyü işlərə kölgə salmaq, ağa qara deməkdən ibarət olub. Artıq demək olar ki, müxalifət partiyaları son bir necə ildə həmişə seçkiləri boykot edirlər. Çünki seçkilərə qatılmaqdan qorxurlar. Ümumiyyətlə, müxalifətin ölkədə keçiriləcək hər hansı bir seçkilərdə nə isə bir uğur qazanmaq şansı sıfıra bərabərdir. Çünki onların xalq tərəfindən heç bir dəstəyi yoxdur. Bu da, onların uğursuzluqlarının sübutudur. Ona görə də, sözügedən partiyalar bu gün birləşə bilmir. O partiyaların hərəsi müxtəlif qütblərdən idarə olunurlar. O qütblərdən aldıqları əmrlərə əsasən, bunlar fəaliyyət göstərirlər. Odur ki, sözügedən partiyaların birləşmələri, bir olmaları və hansısa bir birlik ortaya qoymaları mümkün deyil. Bu partiyalar, əslində, o partiyalara başçılıq edən o liderlərin, yəni özlərini lider adlandıran o şəxslərin maraqları ətrafında fəaliyyət göstərirlər. Maraqlar toqquşduqca, müxalif birliklər dağılır.

### "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov: "Müxalifətin konkret bir amalı, məqsədi və əqidəsi yoxdur"

- Bu toplantının adının "zirvə toplantısı" qoyulmasının özü gülüş doğurur. Çünki "zirvə toplantısı" keçirmək üçün gərək qurumların ölkədə, ictimaiyyət arasında müəyyən nüfuzu olsun ki, istənilən bir tədbirin də adı "zirvə toplantısı" qoyulsun. Digər tərəfdən, bizim müxalifətin konkret bir amalı, məqsədi və əqidəsi yoxdur. Bunları bir məsələ maraqlandırır, satqınlıq və xəyanət yolu ilə xaricdəki ağalarından qrant almaq. Yəni xaricdəki bəzi qüvvələrdən aldıqları maliyyə vəsaitlərindən özlərinin məqsədləri üçün istifadə etsinlər. Nə isə, bir yığıncaq keçirib və bunu da bayraq edib göndərmək ki, biz varıq. AXCP və Müsavat kimi qurumları da aralarında görmək istəyiblər. Amma Əli Kərimli və Arif Hacılı təbiətən qısqanc və məkrli insan olduqlarından, o toplantıya qatılmayıblar. İskəndər Həmidovun, Pənah Hüseynin, Tural Abbaslının və digərlərinin məqsədləri, məhz həmin sələfləri kimi xaricdən maliyyə vəsaiti əldə etməyə yönəlib. AXCP və Müsavat funksionerlərinin bu toplantıya qatılmamalarının səbəbi də "ağaları"nın bu barədə razılığının olmamasıdır. Yəni adları çəkilən partiyalara xaricdə olan "ağaları" göstəriş veriblər ki, həmin toplantıda iştirak etməyin və bunlar da iştirak etməyiblər. Ümumiyyətlə, bu kimi müxalifətdaxili intriqalara əsaslanaraq demək olar ki, müxalifət düşərgəsində nə isə bir birliyin yaranmasına inanmaq sadəlövhlük olardı.



**GÜLYANƏ**

# Sabiq müsavatçı İsa Qəmbər-Arif Hacılı cütlüyünü "ağ yuyub, qara sərdi"

## Tural Abbaslı: "Hətta AXCP-dən biri yazdı ki, Arif Hacılı ilə Əli Kərimlinin görüşü 300 il sonra baş tuta bilər, getsin növbəyə yazılsın"

***Bu gün ənənəvi müxalifət partiyalarından çıxmış bir çoxları var ki, onlar hazırda düşərgə daxilində yeni siyasi təşkilatlar yaratmaqla, həmin təşkilatlara rəhbərlik edirlər. Maraqlısı da budur ki, həmin şəxslərin daha öncələr təmsil olunduqları partiyalarından istefa vermə səbəbləri heç də bir-birindən fərqlənməyib - partiyaların rəhbər orqanlarında avtoritar və qeyri-demokratik rejim, ictimai deyil, fərdi idarəçilik və s. Hətta bu günün özündə də, kəskin naftalin qoxusu verən AXCP, Müsavat və s. tipli partiyaların sədrləri həmin ittihamlara məruz qalmaqda davam edirlər. İstefa verən tərəflər isə, təsis etdikləri siyasi təşkilatlar vasitəsi ilə müxalifətə yeni nəfəs, ab-hava verəcəklərini iddia etsələr də, hələlik, bu, onlara müyəssər olmur. Nəticədə, onlar yenidən vaxtilə təmsil olunduqları siyasi təşkilatların sədrlərinə qarşı ittihamlar irəli sürərək, onların müxalifətin yeni modelinin yaranmasına əngəl törətdiklərini bildirirlər.***



Bu gün, istər Ə.Kərimlidən, istər İ.Qəmbərdən, istər A.Hacılıdan, istərsə də Rəsul Quliyev və başqalarından üz döndərənlər isə, əslində, haqlı ittihamlarını səsləndirməkdə davam etməkdədirlər. Onlardan biri də vaxtilə Müsavat partiyasında fəallığı ilə seçilənlərdən olan, bu partiyanın gənclər təşkilatına sədrlik etmiş, ardınca Müsavat "divan"ının üzvü olmuş "Ağ Partiya"nın sədri Tural Abbaslıdır.

### "Öndə getmək əvəzinə, proseslərin arxasınca sürünürdülər..."

Bu günlərdə onun mətbuata verdiyi müsahibəsindən də, görünür ki, ənənəvi və dağıdıcı adlandırılan müxalifətin heç bir gələcəyi yoxdur. Misal üçün, "Milli Şura"nın və AXCP-nin keçirdiyi bir neçə uğursuz mitinqlərinə toxunan Abbaslı bu kimi cılız aksiyaların düşərgədə, ümumilikdə isə, ictimai rəydə heç bir siyasi canlanma yarada bilmədiyini deyib. "O mitinqlər əks-effekt verdi", deyə ittihamla çıxış edən müxalifətçi partiya sədrinə görə, artıq belə siyasi mübarizə üsulunun vaxtı çoxdan keçib və yararsızlığı ilə yadda qalıb.

T.Abbaslının daha bir ittihamı, bilavasitə AXCP və Müsavat partiyalarının rəhbərliklərinin - Ə.Kərimli və A.Hacılının özlərini "əsas müxalifət partiyaları" kimi təqdim edərək, yerdə qalan müxalifət partiyalarına yuxarıdan aşağı baxmalarına sərgilədiyi münasibətidir. SİTAT: "Müxalifətdə bir inhisarçılıq var idi. Bəziləri tarixi adların altında, bəziləri isə xalq hərəkatından qalan adın arxasında gizlənərək, müxalifətdə bütün öncüllüyün onlara məxsus olduğunu qeyd edirdilər, bu sahəni inhisarda saxlayırdılar. Amma liderliyin, öncüllüyün gətirdiyi öhdəlikləri də icra eləmirdilər. Öndə getmək əvəzinə, proseslərin arxasınca sürünürdülər... Onlar artıq özlərinin müxalifət mövqelərinə, sanki bir təhlükə yarandığını düşünməyə başladılar. İllərdir süni şəkildə qoruyub-saxladıqları mövqelərin əldən gedəcəyi düşüncəsinə qapıldılar. Hələ də bu düşüncədədirlər..."

"Ağ Partiya"nın sədri AMDP sədri İskəndər Həmidovun "zirvə" toplantısına qatıldığını desə də, AXCP, Müsavat, hətta "REAL" partiyasının sözügedən toplantıya qatılmamalarını, bilavasitə inhisarçılığı əldən verməmək istəyi kimi qiymətləndirib.

### "Pənah Hüseyn axı bir zamanlar onların fəxrlə müttəfiqlik etdiyi siyasətçi idi. İndi nə oldu?"

"AXCP və Müsavat, eləcə də, özünü təzə müxalifət elan edən "REAL" bu toplantıya gəlmədi", deyən Abbaslı, hətta bu toplantının onlar tərəfindən ağır təhqir edildiyini də bildirib: "Toplantının alınmaması üçün əllərindən gələni etdilər. Amma istəklərinə yenə nail ola bilmədilər. Özlərinə "böyük" deyənlər iş görmürsə qoy özlərinə "kiçik" deyənlər bir araya gəlsinlər və çıxış yolları arasın".

T.Abbaslı Müsavat və AXCP-nin sonuncu qurultaylarından sonra məhvə doğru yol seçdiklərini deyib: "Arif Hacılı və Əli Kərimli bu yolda "uğurla" irəliləyirlər. Onlar bir-birini də qəbul etmirlər. Ə.Kərimli Müsavat başqanı A.Hacılının dəfələrlə etdiyi müraciəti saya salmadı və onu qəbul etmədi. Hətta AXCP-dən biri yazdı ki, A.Hacılı ilə Ə.Kərimlinin görüşü 300 il sonra baş tuta bilər, getsin növbəyə yazılsın. Yəni bunların "mənəm-mənəmliyi" elə bir vəziyyətə gətirib çıxarıb ki, rəhbərlik etdikləri partiyalar təklənmiş vəziyyətdə qalıblar. P.Hüseyn, axı bir zamanlar onların fəxrlə müttəfiqlik etdikləri siyasətçi idi. İndi nə oldu? Tural Abbaslı Müsavatın aparıcı funksionerlərindən idi. İndi T.Abbaslını aşağılayırlar öz aləmlərində. Əgər müxalifətin "zirvə" toplantısındakıları bəyənmirlərsə, aşağılamasınlar. Özləri-Müsavat və AXCP bir araya gəlsin, əməkdaşlıq müqaviləsi imzalasınlar. Görək, imzalaya bilirlərmi? Bunlar öz aralarında bir araya gələ bilmir və bir araya gələnləri isə, gözdən salmaqla məşğuldurlar. Bu isə, artıq başqa şübhələrə də yol açır. Sanki bazarlarının ölə biləcəyindən qorxurlar. Amma arxayın olsunlar, biz heç kimlə bazarlığa gedən deyilik. Onlar öz bazarlıqlarında da olsunlar..."

Beləliklə, fakt budur ki, "Ağ Partiya" sədri müsahibəsində ürəyini tam şəkildə boşaltsa da, sonda qarşı tərəflərin - AXCP, Müsavat kimi partiya rəhbərliklərinin və onların yandaşlarının təhqirlərinə də, əslində, yaxşı cavab verib. Bu isə, həm də belə nəticəyə gəlməyə zəmin yaradır ki, T.Abbaslı yaxın zamanlarda ənənəvi, radikal və dağıdıcı müxalifətə qarşı amansız savaşa başlayacaqları siqnalını verib. Hətta qənaətə gəlmək mümkündür ki, AMDP sədri İ.Həmidovun "zirvəsi"nə qatılan müxalifətçi siyasi təşkilatlar, artıq öz planlarını işləyib-hazırlayıblar.

**Rövşən RƏSULOV**

TƏRS BAXIŞ

# Mehman Hüseynov doktor Hayder ola bilmədi

## *Və ya "ac" Maqqoşun meymunluğu*

***Bugünlərdə, həmkarım, keçmiş millət vəkili Etibar Hüseynovun maraqlı bir statusu ilə qarşılaşdım. Sözügedən status Avropada "SDİ"-nin direktoru Leyla Yunusla birgə Azərbaycan dövləti əleyhinə kampaniyalar quran "hüquq müdafiəçisi" Emin Hüseynovun qardaşı, "videobloger" adı altında videomeymunluq edən, hətta müvafiq həbs cəzası almasına rəğmən, cəzaçəkmə müəssisəsində dinc dayanmayan Mehman Hüseynovla bağlıdır. Status isə belədir: "Televiziyada " Maşın Şou" bitən kimi, Fb-də "Aclıq olsun, kef olsun" şousuna start verildi. Bu gedişlə oyunun qəhrəmanı 8 (!!!) gündür ki, "quru aclıq" keçirən Mehman Hüseynov, amerikalı doktor Hayderi kölgədə qoyacaq..."***



### Demə, Mehman Hüseynov "lotuymuş", bizim də xəbərimiz yox...

Söhbətimin məğzinə keçməmiş, onu da xatırladım ki, M.Hüseynov cəzasını çəkdiyi müəssisədə daxili qaydaları pozması ilə yanaşı, həm də orada xidmət keçən əməkdaşa qarşı nalayiq hərəkətlərə yol verib, hətta ona fiziki güc də tətbiq etməyə cəhd göstərib. Nəticədə, qanunun bu istiqamətdəki tələbləri növbəti dəfə ona şamil olunub. İş istintaqdadır və məhkəmə olacaq. İndi bu məhkəmə hansı qərarı çıxaracaq, ya da çıxarmayacaqsa, bu, artıq əlahəzrət qanunun və bu qanunun tələblərindən nəticə çıxaran hakimlərin işidir.

Bütün bunlardan "qeyzlənən" M.Hüseynov dərhal "ölüm aclığı" deyilən saxta aksiyaya başlayıb. Demə, bu şəxs cəza çəkdiyi müəssisədə nə istəsə, onu da edə bilərmiş. Yaxud demə, bu şəxs elə sanırmış ki, Azərbaycanın qanunları ona şamil-filan olunurmuş. Yəni M.Hüseynov "lotuymuş", bizim də xəbərimiz yox... Əslində, "lotuluğu" - "potuluğu" qalsın bir kənara, hələ bir neçə il öncə, qardaşı Emin Hüseynov "pudralanıb-kraskalanaraq", İsveçrə səfirliyi vasitəsi ilə ölkədən qaçarkən, bəlli idi ki, qardaşı M.Hüseynov üçün də "pudra-kraska" vurmaq, saçına rezin taxıb, "ya mamina duroçka" stilində hörük hörmək heç də çətin proses deyilmiş. İndi, bu adam "kişilənib" və hətta (!) vəzifəsini həyata keçirən zabitə belə, əl qaldırıb, sabotaj törədir. Adını da qoyur ki, "siyasi məhbusdur", özü də "xalisindən" (?!). Bütün bunlardan sonra, "aclıq aksiyasına" başlayıb. Ancaq gəlin görək, başlayıbmı? Deyilənə görə, artıq penitensiar xidmətdən bildirilib ki, M.Hüseynov heç də "aclıq aksiyası" keçirmir, yeyir də, içir də, üstəlik, telefonla da danışır. Fəqət, belədirsə, onda M.Hüseynovun bəlli məsələsi nəyə görə ictimailəşdirildi? Əslində, səbəbləri bəllidir və bəlli olduğuna görə də, uzağa getmək fikrim yoxdur...

### Hayder gizli vitaminlər qəbul etsə belə...

İndi isə keçək doktor Haydərə. Kimdir Hayder? Onun barəsində məlumatda yazılır: "Amerikalı astofizik-alim Çarlz Hayder bütün dünyada sülhün bərqərar olunmasını arzulayıb. O, bu məqsədlə 1986-cı il sentyabrın 23-də aclıq aksiyasına başlamışdı. Onun aksiyasının əsas tələbi Ronald Reyqan hakimiyyətinin Sovet İttifaqı ilə silah yarışından imtina etməsi və 2000-ci ilə qədər ölkədə bütün nüvə başlıqlarının məhv edilməsi idi. Amerikalı alimin bu addımı Sovet İttifaqında da Hayderin adını populyar etmişdi. 218 gün davam edən aksiya SSRİ prezidenti Mixail Qorbaçovun aclığı dayandırmaqla bağlı xahiş məktubundan sonra başa çatmışdı. Lakin 218 gün ərzində yalnız isti su və dəniz duzu qəbul etdiyini desə də, çoxsaylı şahid ifadələrinə görə, alim gizlincə vitamin qəbul edirmiş..."

Beləliklə, hətta dünyanın diqqətini ölüm aclığı ilə özünə cəlb edən doktor Hayder, alt-altdan vitamin-filan yeyirmiş ki, acından ölüb-ölməsin.

Amma buna baxmayaraq, M.Hüseynov heç altdan-altdan vitaminyeyən Hayder də ola bilmədi. Heç ola da bilməz. Hayder hara, videomeymunluğu vasitəsi ilə kimin gəldi bostanına daş atan saçırezinli Maqqoş hara?..

Hayderdən fəqli olaraq, onun yeyib-içib "aclıq" etməsi heç 10-ca gün də çəkmədi. "Ay səni meymuuuun..." ifadəsini də, elə Mehman kimi Maqqoşlara deyirlər daaa...

***Rövşən NURƏDDİNOĞLU***

# Yalan və çirkab ifraz edən parazitlər

## *Vidadi İsgəndərli kimi xəyanətkarlara layiq olduqları cavab!*

***Bu gün antimilli ünsürlər, Azərbaycan dünyanın diqqət mərkəzində olduğu bir vaxtda ifrat dərəcədə fəallaşmaqla, yalan və çirkab ifraz etməklə məşğul olurlar. Bununla da bu parazitlər, Azərbaycan xalqının daha çox nifrətinə düçar olurlar. Çünki onlar multikulturalizmin alternativi olan xarici islamofob və ksenofob siyasi dairələr və onların qulbeçələri olan antimilli ünsürlər olmaqla yanaşı, əxlaqsız mənəviyyatsızlardır. Leksikonları isə mənəvi-əxlaqi dəyərlərimizə və milli kimliyimizə büsbütün yad olan təhqir və söyüşə əsaslanır. Siyasi leksikona "söyüş diplomatiyası" kimi üzdəniraq "məfhum" gətirmələri ilə öyünən Vidadi İsgəndərli, Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Bəxtiyar Hacıyev, Rəfael Piriyev... qırılmışlar birdi, ikidi, üçdü, beşdi... kimi sapı özümüzdən olan xəyanətkarlar öz ağalarının diktəsi ilə ölkəmizə qarşı şər-böhtan kampaniyası aparırlar.***

### Siyasi gündəmə atasının qəbri üzərindən gələn əxlaqsız

Bu gün V.İsgəndərli kimi parazitlər nə ata, nə ana tanıyır, mənəviyyatsız ünsürün keçmişi utanılacaq məqamlarla zəngin olduğu da bəllidir. Sən o V.İsgəndərlisən ki, gənclərə işgəncə verən ən qəddar müstəntiq kimi ad qazanmışdın. İndi isə Avropada oturub, Azərbaycana "demokratiya" gətirəcəyindən dəm vurursan. Unutma, sən və orduxanlar hər zaman Azərbaycan xalqına yad olubsunuz. Çünki sənin kimi şərəf və ləyaqətini itirmişlər pul və sərvət üçün dövləti, Vətənini satanlardır. Necə ki, T.Sadıqlı və M.Mirzəli 80 min avro üçün bir-birlərinə girib, bir-birlərinin valideynlərini təhqir edirdi. Sən də, Orduxan da, Emin Milli və Emin




Hüseynov kimi... Və bu gün milli satqınlıq edən ünsürlərə Azərbaycan xalqı öz yerini göstərdi.

### Novella Cəfəroğlu: "Bu, siyasət deyil, tərbiyəsizlikdir"

Son günlər O.Teymurxanın, M.Mirzəlinin, V.İsgəndərlinin dövlət və hökumətin nüfuzlu xadimlərinə qarşı aşırı tərbiyəsizliklərinə qarşı hüquq müdafiəçisi Novella Cəfəroğlu sərt münasibət bildirib: "Təhqirlərlə çıxış edib, bunu "siyasi mübarizə", "müxalifətçilik" kimi qələmə verənlər ciddi şəkildə yanılırlar və bu ünsürlər tərbiyəsizlərdir. Çox pis və əxlaqsız sözlər yazırlar. Belələri insan yox, iblisdilər. Vidadi İsgəndərlinin özünü "Avropa demokratiyasının beşiyi" kimi təqdim edən Fransa hakimiyyəti tərəfindən müdafiə olunması heç bir çərçivəyə sığmayan haldır".

Göründüyü kimi, bu şərəfsizlər kralı Fransada oturub ac, quduz köpəklər kimi Azərbaycan dövlətinin və hakimiyyətinin əleyhinə hürsələr də, istər beynəlxalq hüquqdan və xalqın qınağından qurtula bilməyəcəklər.

***Rəfiqə HÜSEYNOVA***

# "Ermənistanın qeyri-konstruktiv mövqeyi əngəl yaradır"

"2018-ci ildə ölkəmizin əldə etdiyi ən böyük nailiyyətlərdən biri müvəffəqiyyətli ordu quruculuğu oldu. Azərbaycan büdcəsinin böyük hissəsini hərbi xərclərə ayırdı. Ordumuz müasir silahlarla təchiz edildi. Nəticədə yüksək döyüş qabiliyyətli, işğal altında olan torpaqlarımızı azad etməyə qadir olan ordu formalaşdırıldı. Görülən işlər nəticəsində ordumuz dünyanın ən güclü 50 ordusu sırasına daxil ola bilib ki, bu, hər birimiz üçün sevindirici haldır". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.

O bildirib ki, 2018-ci ildə Azərbaycanın xarici siyasətində bir-birinin ardınca uğurlar qazanılıb. Politoloq söyləyib ki, ötən il Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünya ictimai rəyinin intensiv məlumatlandırılması və nəticə etibarı ilə Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi kimi tanıdılmasına nail olunmasıdır: "Bu gün bütün beynəlxalq qurumların əksəriyyəti, NATO, Avropa Şurası, Avropa Parlamenti, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digərləri Dağlıq Qarabağ Azərbaycanın ərazi bütövlüyü tərkibində həll edilməsinə dair bəyanatlar verdi. Əgər illər öncə İslam Əməkdaşlıq Konfransından başqa heç bir beynəlxalq birlik Azərbaycanın ərazi bütövlüyünü heç söz də belə bildirmirdisə, artıq Azərbaycanın uğurlu xarici siyasəti nəticəsində buna nail ola bilmişik. Hazırda beynəlxalq təşkilatlar açıq şəkildə bu-



nu bütün dünya ictimai rəyinə bəyan edirlər".

Q.Hüseynli söyləyib ki, atılan addımlar nəticəsində Azərbaycanın beynəlxalq aləmdə siyasi mövqeləri möhkəmlənməklə yanaşı, dinamik rol oynamağa başlayıb: "Bu gün Azərbaycan Prezidentinin həyata keçirdiyi xarici siyasət nəticəsində qarşıya qoyulan hədəflərin hamısına nail olunub. Sadəcə siyasi proseslərdə Ermənistan tərəfinin tutduğu qeyri-konstruktiv mövqe hələ ki, bu diplomatik uğurları real işə çevirməyə əngəl yaradır".

Politoloq vurğulayıb ki, Azərbaycan Ermənistanın nazı ilə oynamaq fikrində deyil: "Bu müəyyən müddətə qədər dayan bilər. Ölkə başçısının özü də dəfələrlə vurğulayıb ki, biz yaz aylarına qədər Ermənistana vaxt vermişik. Bu da onların daxilində baş verən proseslərlə bağlı idi. Azərbaycan siyasi rəhbərliyi çox böyük comərdlik göstərərək Ermənistanda qarışıqlıq olan zaman onlara hər hansı müdaxilə etmək istəmədi. Bu addım düzgün idi. Bunun nəticəsində dünya ölkələri, aparıcı beynəlxalq təşkilatlar Azərbaycan xalqına, onun siyasi rəhbərliyinə hörmətlə yanaşır və ölkəmizin həyata keçirdiyi siyasətin uğur verəcəyi şübhəsiz görünür".

# Bakıda mağazadan 3980 manat oğurlayan şəxs saxlanılıb

Bakıda mağazaların birindən 3980 manat oğurlayan şəxs saxlanılıb. DİN-dən SİA-ya verilən məlumata görə, oğurluq etdiyinə görə tutulmuş Sərdar Pənahovun ətrafında Nərimanov RPİ 16-cı PB-nin əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə onun ötən il dekabrın 25-də rayon ərazisindəki mağazaların birindən 3980 manat oğurlaması da müəyyən edilib.



***Hər hansı fərdin, bütün digər insanların hamılıqla qəbul olunmuş hüquqlara və azadlıqlara, qarşılıqlı münasibət qaydalarına uyğun hərəkət etdiyinə inamı hər hansı situasiyanı qabaqcadan görməyə imkan verir. İnsan, məhz öz həm növündən, hər hansı təhlükə müqabilində, cavab reaksiyanı gözləyir və onda insan birliyinin hüquqauyğun davranışına böyük əminlik hasil olur. İnsan hüquqlarına əməl edilməsi, bu, vahimə və qorxunun, nifrətin, ksenofobiyanın, təcavüzün və müharibələrin olmaması deməkdir. Deməli, insan hüquqlarına əməl edilməsi eyni zamanda da, ümumi sülhün qorunması deməkdir. Əks-təqdirdə, insan hüquqlarının, nəinki təminatı, hətta müdafiə haqqında danışmağa belə dəyməzdi.***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Təhlükəsizlik və insan hüquqları

Leyla İsgəndərova yazır: "İsveçin sabiq baş naziri U.Palmenin təşəbbüsü ilə yaradılmış "Tərksilah və Təhlükəsizlik məsələləri üzrə Müstəqil Komissiya" BMT Nizamnaməsinin müəyyən etdiyi kollektiv təhlükəsizlik sisteminin kifayət qədər səmərəli olmadığının səbəblərini təhlil edərək, göstərmişdir ki, İkinci Dünya müharibəsindəki dövrdə Şərq və Qərbin ictimai-siyasi qarşıdurması BMT-nin Nizamnaməsinin BMT-nin çevik silahlı qüvvələrinin yaradılmasını və kollektiv təhlükəsizlik orqanlarının real təsir vasitələri ilə təchiz edilə biləcək tədbirlərin qəbul olunmasını nəzərdə tutan 39-51-ci maddələrinin real surətdə həyata keçirilməsi yolunda maneəyə çevrilmişdir. Bundan əlavə, BMT Nizamnaməsində təsbit edilmiş kollektiv özünümüdafiə hüququ bir-birinə qarşı duran hərbi-siyasi ittifaqın - Şimali Atlantika Blokunun (NATO) və Varşava Müqaviləsi Təşkilatının (BMT) yaradılması üçün əsas olmuşdur.

SSRİ-nin və bütövlükdə, sosializm düşərgəsinin süqutundan sonra dünyanın siyasi xəritəsində müəyyən dəyişikliklər (müstəqil dövlətlərin meydana gəlməsi) baş versə də, NATO hələ də öz varlığını qoruyub-saxlamaqdadır. Bu blokun nəyə və kimə qarşı çevrilməsi, ona üzv olan dövlətlərin nədən ehtiyat etməsi və digər məsələlər haqda təfərrüatlar, hələlik, dəqiq məlum deyil. Məlum olan budur ki, NATO insan hüquq və azadlıqlarının müdafiəsi, təminatı istiqamətində heç bir əməli fəaliyyətlə məşğul olmur. Əslində, ola da bilməz, çünki o, hərbi-siyasi ittifaqdır və onun əsas vəzifəsi iştirakçı dövlətlərin guya təhlükəsizliyini qorumaqdan ibarətdir. Əgər belədirsə, deməli, o, insan hüquqlarının (ən azı, öz üzvü olan dövlətlərin ərazisində) da müdafiəçisi qismində çıxış edə bilər. Lakin ABŞ və Böyük Britaniya başda olmaqla, bu ittifaq nəinki insan hüquqları barəsində düşünmür, hətta məkan və ərazi aspektində belə, insan hüquqlarını qorumaqda, yaxud heç olmasa qardaşlıq köməyi etməkdə soyuqluq nümayiş etdirir".

Göstərmək lazımdır ki, NATO-nun işlərində Azərbaycanın qeyri-rəsmi iştirakı bu ittifaq tərəfindən müsbət qarşılanmış, habelə, onun heyəti tərkibində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin çox kiçik bir kontingentinin (100-ə yaxın əsgər və zabit) Əfqanıstanda öz beynəlmiləl borcunu yerinə yetirməsi ordumuzun beynəlxalq standartlara uyğunluğunun göstəricisidir. Lakin bunun müqabilində NATO Ermənistan-Azərbaycan münaqişəsində, özünün heç olmasa, dolayısı ilə də olsa, rolunu görmək istəmir. Deməli, Azərbaycan vətəndaşlarının hüquqları, eləcə də, I milyondan artıq insanın məcburi qaçqın və köçkün vəziyyətində yaşamasının ittifaq üçün heç bir əhəmiyyəti yoxdur. Bu da, öz növbəsində, söyləməyə əsas verir ki, NATO yalnız hərbi məqsədlərə xidmət edir və insan hüquqlarının müdafiəsi, ümumiyyətlə, insan hüquq və azadlıqları onun üçün yox dərəcəsindədir.

L.İsgəndərovanın qeyd etdiyi kimi, indiki şəraitdə dövlətlərin ümumi təhlükəsizliyi və kollektiv məsuliyyəti prinsipi iki əsas vəzifəni yerinə yetirməyə istiqamətləndirilməlidir. Həmin istiqamətlərə aşağıdakıları aid etmək olar:

**1)** beynəlxalq birliyin sülhün qorunması üzrə icra mexanizminin fəaliyyətinin səmərəliliyinin artırılması;

**2)** yeni beynəlxalq hüquq normalarının işlənib-hazırlanması əsasında insan hüquqlarının müdafiəsinin daha da gücləndirilməsi.

Nəzərə almaq lazımdır ki, ikinci istiqamətin gücləndirilməsi sahəsində insan hüquqları beynəlxalq sülhün təmin olunmasına daha artıq töhfə verə bilər. Bu, ümumi təhlükəsizliyin təmin edilməsi üçün də vacibdir. Digər tərəfdən, unutmaq olmaz ki, möhkəm sülhə nail olunmasında, insan hüquqlarından alət kimi deyil, təminatlandırıcı vasitə qismində istifadə olunması daha məqsədəuyğun olardı.

İnsan hüquqlarının sülhün əsası olması haqqında danışarkən, cinayətkarlıqla mübarizəni də nəzərə almaq vacibdir. Çünki insan hüquqları bu sferada da özünün müəyyən çəkisini ortaya qoymaq iqtidarındadır. Beynəlxalq cinayətkarlıqla mübarizədə insan hüquqları, fikrimizcə, yalnız humanitar rol yerinə yetirə bilər. Dünya ictimaiyyətinin cinayətlərin qarşısının alınmasında iştirakını buna misal göstərmək olar. Belə iştirak özünü aşağıdakılarda təcəssüm etdirə bilər:

**a)** cinayətkarların tutulub saxlanılmasında hüquq-mühafizə orqanlarına köməklik göstərilməsi;

**b)** gizli şəraitdə fəaliyyət göstərən cinayətkarların məskun olduqları yerlərin aşkar olunmasına vəsitəçilik edilməsi;

**v)** cinayətkar yolla əldə edilmiş əmlakın tapılmasında yardım göstərilməsi və s.

Hüquq ədəbiyyatında, düzgün olaraq qeyd edilir ki, insan hüquqları beynəlxalq cinayətkarlıqla mübarizədə dövlətlərin daxili və dövlətlərarası fəaliyyətin silahı olmamalıdır. Bu istiqamətdə insan hüquqlarından ancaq təbliğat vasitələri qismində istifadə oluna bilər. Ehtimal ki, insan hüquqlarına hörmətlə yanaşılmanın dərindən və ətraflı aşılanması bəzi beynəlxalq terrorçu təşkilatları, habelə, mütəşəkkil cinayətkar təşkilatları və birlikləri öz cinayətkar niyyətlərindən çəkindirə bilər. Fikrimizcə, buraya narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni də aid etmək olar.

Beynəlxalq cinayətkarlıqla mübarizədə hazırda yeni meyillər də nəzərə çarpmaqdadır. Belə meyillərin kökləri hələ keçən əsrin 50-ci illərinə doğru olan dövrdə, yəni İkinci Dünya müharibəsinin başa çatmasından sonra özünü büruzə verməyə başlamışdır.

L.İsgəndərova daha sonra yazır: "1945-ci ilin noyabrında alman-faşist imperiyası hərbi canilərini mühakimə etmək üçün Beynəlxalq Hərbi Tribunalın Nizamnaməsinin işlənib-hazırlanması prosesinə başlanılmış və bu proses 1946-cı ilin noyabrında başa çatdırılmışdır. 1946-cı ildə baş tutmuş məhkəmə prosesində antihitler ittifaqının hüquqşünaslarından ibarət olan hərbi tribunal (hərbi tribunalın baş ittihamçısı SSRİ-nin nümayəndəsi olmuşdur) 12 nəfər hərbi cinayətkarı asılmaqla ölüm cəzasına, 7 nəfəri isə uzunmüddətli həbs cəzasına məhkum etmişdir. Yalnız 1 nəfər bəraət almışdır ki, onun da hərbi əməliyyatlarla əlaqəsinin olmadığı tam sübuta yetirilmişdir.

Nizamnamədə sülh əleyhinə cinayətlərin, hərbi cinayətlərin və insanlıq əleyhinə cinayətlərin tərifi verilmiş, sonralar həmin müddəalar muxtəlif beynəlxalq-hüquqi sənədlərdə də təsbit edilmişdir.

Potsdam Bəyannaməsinin, SSRİ, ABŞ və Böyük Britaniya xarici işlər nazirlərinin 1945-ci il tarixli Moska müşavirəsinin qərarı əsasında, əsas yapon hərbi canilərini mühakimə etmək üçün Tokio Hərbi Tribunalı təsis edilmişdir. 1946-1948-ci illərdə Tokioda keçirilmiş məhkəmə prosesi nəticəsində, 7 nəfər hərbi cinayətkar ölüm cəzasına, 21 nəfər isə müxtəlif müddətli həbs cəzasına məhkum edilmişdir.

İkinci Dünya müharibəsinin gedişində insan hüquq və azadlıqları, bütövlükdə, insanlıq əleyhinə ağlasığmaz cinayətlər törətmiş şəxslərin məhkəmə təqibinin zəruriliyini dünya birliyini cinayət məsuliyyətinə cəlbetmə müddətlərinin bitməsini bu qəbildən olan cinayətlərə və cinayətkarlara tətbiq etmək haqqında normanı beynəlxalq hüquqda təsbit etməyə sövq etdi. 6 noyabr 1968-ci il tarixdə BMT Baş Məclisi cinayət məsuliyyətinə cəlbetmə müddətlərinin hərbi canilərə və insanlıq əleyhinə cinayətlərə şamil edilməməsi haqqında Konvensiya qəbul etdi. Bəzi dövlətlər Konvensiyaya tərəddüdsüz qoşuldular. Bir sıra dövlətlər isə müddətlərin bitməsi haqqında normanın təsirini insanlıq əleyhinə olan cinayətlərlə məhdudlaşdıraraq, hərbi cinayətləri istisna etdilər".

Müəllif göstərir ki, belə mövqeyin naqisliyi İkinci Dünya müharibəsi gedişində alman faşistlərinə nökərçilik etməklə öz millətinə və xalqına xəyanət etmiş Klaus Barbyenin səs-küyə səbəb olmuş mühakimə prosesi ilə əlaqədar, xüsusilə, qabarıq şəkildə üzə çıxdı. Bu vaxt K.Barbyenin yaşı, artıq 80-i keçmişdi. Fransanın kassasiya məhkəməsi qəzəblənmiş insanların təzyiqi altında "insanlıq əleyhinə olan cinayətlər" anlayışının genişləndirilmiş təfsirinə müraciət edərək, bu anlayışa işğalçı rejimin öz siyasi rəqibləri barəsində, onların müqavimət formasından asılı olmayaraq, törətdikləri cinayətləri daxil etdi. Beləliklə, K.Barbye layiq olduğu cəzanı, gec də olsa, aldı.

Göstərmək lazımdır ki, hər hansı sivil cəmiyyətdə açıqlıq, informasiya azadlığı, əqidə azadlığı, aşkarlıq, ölkədən getmək azadlığı və yaşamaq üçün ölkə seçmək azadlığı olmadan beynəlxalq etimad, qarşılıqlı anlaşma, tərksilah və beynəlxalq təhlükəsizlik mənasızdır. Əqidə və inam azadlığı digər mülki azadlıqlarla yanaşı, elmi-texniki tərəqqinin əsasını təşkil edir. Belə tərəqqinin nailiyyətlərindən bəşəriyyətin ziyanına istifadə edilməyəcəsinə təminat verilməlidir. Belə ziyanın olmaması iqtisadi və sosial tərəqqinin əsasını təşkil edir, habelə, sosial hüquqların səmərəli müdafiəsi imkanlarının siyasi təminatı qismində çıxış edir. Sülh, tərəqqi və insan hüquqları bir-birindən ayrılmaz ümumbəşəri dəyərlərdir. İnsan hüquq və azadlıqlarına qayğı - həqiqi və ya "humanitar təcavuz"ün gerçəkləşdirilməsi tələblərindədək gedib çatan saxta, riyakarlıqla edilən qayğı o dövlətlər tərəfindən daim numayiş etdirilmiş və indi də etdirilir ki, onların insan hüquqları ilə bağlı xidmət dəftərçəsində hələ çox şeylərin yaxşılaşdırılmasını yalnız arzu etmək olar. Azərbaycanda demokratik proseslərin inkişaf perspektivləri, insan hüquqlarının qorunması, təhlükəsizliklə yanaşı, xeyli dərəcədə vətəndaş mədəniyyəti və vətəndaş cəmiyyətinin özünü necə göstərməsindən iqtisadi-siyasi və sosial-mədni atmosferi necə əhatə etməsindən də asılıdır. Vətəndaş mədəniyyəti və vətəndaş cəmiyyəti üçün ictimai passivlik, insanların laqeydliyi, yaxud da onların xırda-subyektiv xarakterli mənfəətdarlıq hisslərinin üstün gəlməsi xüsusi tip ictimai riskə yol açır ki, onun da nəticəsində həm demokratik institutların, həm də sosial və iqtisadi institutların fəaliyyətinə ciddi ziyan yetirilir. Sözsüz ki, burada kütləvi informasiya vasitələrinin üzərinə də böyük məsuliyyət düşür.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

səs

Son səhifə 5 yanvar

## "Nar"-ın dəstək olduğu "Breyn Rinq" bilik yarışının qalibi məlum oldu

"Breyn Rinq" intellektual yarışlarında ənənəvi "Bilik" kubokunun qalibi "Kapital Bank" komandası olub. Xatırladaq ki, ilin ilk yarısının qalibi və "Nar" Kubokunun sahibi isə "Full Göyçay" komandası idi.




"Breyn Rinq" intellektual yarışlarının yayımı zamanı televiziya tamaşaçıları üçün xüsusi bir müsabiqə də keçirilib. Belə ki, verilişin yayımı zamanı "Nar"-ın "Twitter" hesabında qoyulan suala ən tez cavab verən izləyicilər xüsusi hədiyyələr qazanırdılar. "Breyn Rinq" həvəskarları bu intellektual yarışı izləmək fürsəti ilə yanaşı, həm də "Nar"-dan hədiyyə qazanmaq şansı əldə ediblər. "Nar" gəncləri stimullaşdırmaq üçün müxtəlif bilik yarışları, intellektual oyunları dəstəkləməyə çalışır. Bununla da elmə, təhsilə, biliyə olan marağı artırmağa səy göstərir, maariflənməni təşviq edir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7300-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## Böyük Teatrda azərbaycanlı musiqiçilərin iştirakı ilə "Don Karlos" operası oynanılacaq



Yanvarın 23-dən 26-dək Rusiya Dövlət Akademik Böyük Teatrında C.Verdinin "Don Karlos" operası nümayiş etdiriləcək. Teatrın saytında yer alan məlumatda deyilir ki, yanvarın 24-də və 26-da səhnə əsərində Yelizaveta Valua obrazını Azərbaycanın Xalq artisti Dinara Əliyeva (soprano) yaradacaq. Yanvarın 23-də və 25-də Don Karlosun partiyasını Azərbaycanın Xalq artisti Yusif Eyvazov (tenor) ifa edəcək.

Dinara Əliyeva 2009-cu ildən Böyük Teatrın solistidir. İfaçının 2010-cu ildə Bakıda məşhur tenor Plasido Dominqo ilə birgə konserti olub. Karyerasına İtaliyanın teatr və konsert zallarında başlayan Yusif Eyvazov 2008-ci ildə Milanda Opera Müğənniləri Beynəlxalq Müsabiqəsinin Qran-Pri mükafatına layiq görülüb. O, 2012-ci ildə Bakıda Vokalçıların Bülbül adına VI Beynəlxalq müsabiqəsinin qalibi olub.

## ELAN

"Avangard -2016" MMC-yə məxsus lisenziya itdiyi üçün etibarsız sayılır.

* * *

ADPU-nun Davamlı təhsil şöbəsinin İbtidai sinif müəllimliyi ixtisası üzrə dinləyicisi Yusifova Nərmin Fazil qızının adına verilmiş dinləyici vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

ADPU-nun sosial iş ixtisası üzrə III kurs tələbəsi Hacıyev Orxan Hidayət oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Globe Soccer Awards-2018: Ronaldu ən yaxşı futbolçu seçildi



Avropa Klubları Assosiasiyası (ECA) və Avropa Futbol Agentləri Assosiasiyası (EFAA) 2018-ci il üçün "Globe Soccer Awards"ın mükafatçılarını müəyyən edib. TASS informasiya agentliyi xəbər verir ki, "Yuventus" futbol klubunun hücumçusu Kriştianu Ronaldu ən yaxşı futbolçu mükafatına layiq görülüb. Portuqaliyalı futbolçu eyni mükafatı beşinci dəfədir alır ki, bu da rekord göstəricidir. Ronaldu, həmçinin ilin ən yaxşı qolu nominasiyasında mükafat qazanıb. Bu, futbolçunun "Real Madrid"in heyətində olarkən UEFA Çempionlar Liqasında "Yuventus"un qapısından keçirdiyi qola görədir.

Mükafatlar bir neçə nominasiyada təqdim edilib. Ən yaxşı məşqçilik karyerası nominasiyasında Rusiya millikomandasının sabiq baş məşqçisi, italiyalı Fabio Kapello qalib olub. İlin ən yaxşı klubu "Atletico Madrid" hesab edilib.

"Yuventus"da işləyən Fabio Parattiçi ən yaxşı idman direktoru seçilib. İlin ən yaxşı agenti nominasiyasında Kriştianu Ronaldunun agenti Jorje Mendeş qalib gəlib. İlin ən yaxşı karyerası nominasiyasında Fransa millisinin və "Yuventus" klubunun futbolçusu Blez Matuidi, ilin ən yaxşı məşqçisi nominasiyasında isə Fransa millisi ilə çalışan Didye Deşam seçilib. Mükafatlandırma mərasimi Dubayda keçirilib.

## "Liverpul" mövsümdə ilk məğlubiyyətini aldı




Futbol üzrə İngiltərə Premyer Liqasında vacib oyun keçirilib. SİA-nın məlumatına görə, 21-ci turun son görüşündə çempionluğa əsas iddialı iki komanda - "Mançester Siti" və "Liverpul" klubları üz-üzə gəlib. Olduqca maraqlı və gərgin keçən qarşılaşma, Pep Qvariolanın komandasının 2:1 hesablı qələbəsi ilə başa çatıb.

Bu qələbə sayəsində meydan sahibləri turnir cədvəlində həm 2-ci sıraya yüksəlib, həm də lider "Liverpul"la xal fərqini 4-ə endirib. Yurgen Kloppun komandası isə bu mövsüm ölkə çempionatında ilk dəfə məğlub olub.

## "Real"ın 101 milyonluq transferi 22-ci dəfə zədələndi



"Real"ın futbolçusu Qaret Beyl növbəti dəfə zədələnib. Qol.az-ın xəbərinə görə, La Liqanın 17-ci turunda "Vilyarreal"a qarşı matçda (2:2) start heyətdə meydana çıxan uelsli hücumçu zədə səbəbindən cəmi bir hissə oynayıb və İsko ilə əvəzlənib. Onun bərpa müddətinin məlum olmadığı bildirilib

"AS" qəzeti yazır ki, bu, 2013-cü ildə "Real"a transfer olunan Beylin Madrid klubunda 22-ci zədəsidir. 29 yaşlı futbolçu bu zədələrə görə ümumilikdə 84 oyun buraxıb. Qeyd edək ki, Q.Beyl cari mövsüm 23 matçda 10 qol vurub, 5 qolun ötürməsini verib. Əlavə edək ki, Beyl "Real" 101 milyon avroya "Tottenhem"dən transfer olunub.

## Radamel Falkaonun atası tennis oynayarkən həyatını itirib



"Monako"un futbolçusu Radamel Falkaonun atası Radamel Qarsiya Kinq tennis oynayarkən həyatını itirib. Bu barədə Kolumbiya Futbol Federasiyasının rəsmi "Tvitter" hesabı məlumat yayıb. 61 yaşlı sabiq futbolçunun ürək tutmasından vəfat etdiyi bildirilir. 32 yaşlı hücumçunun atası xəstəxanaya çatdırılsa da, onun həyatını xilas etmək mümkün olmayıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**